

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Azərbaycançılıq ideologiyası xalqın milli sərvətidir



8

SƏS

№ 141 (6824)

10 avqust 2023-cü il.
Qiymətı 60 qəpik

# Azərbaycan ədaləti və ərazi bütövlüyünü bərpa etdi

2



*İLHAM ƏLİYEV: "Biz ədaləti güc hesabına bərpa etmiş ölkə olaraq yeni sülh prosesinin müəllifi olduq"*

# Heç bir nəticə vəd etməyən İLLÜZİYALAR



9

## Arzu, istək, sevinc, fərəh dolu YOLLAR



5

## Haradasan Azərbaycan Kinosu?



5

## Erməni səlibçilər



6

## Beynəlxalq ekspertlər: “Azərbaycan hər hansı bir yolla Zəngəzur dəhlizini açıb keçəcək”




15

## AXCP-dəki trol dəstəsinin sayı artırılıb

*Tam qətiyyətlə demək olar ki, dağıdıcı müxalifətin yaxın vaxtlarda düzəlməsi və normal düşüncə axarı ilə fəaliyyət göstərməsi mümkün deyil.*



14

# Azərbaycan ədaləti və ərazi bütövlüyünü bərpa etdi



## *İLHAM ƏLİYEV: "Biz ədaləti güc hesabına bərpa etmiş ölkə olaraq yeni sülh prosesinin müəllifi olduq"*



***"2020-ci il noyabrın 10-da Bəyanatı imzaladığımız zaman vəziyyət, əslində, dayanıqlı sülhü təmin etmirdi. O, sülh razılaşması deyildi, Bəyanat idi. Əslində, Ermənistanın kapitulyasiya aktı idi". Bunu Azərbaycan Prezidenti İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində deyib.***



Azərbaycanın Ermənistanla münaqişənin yekun həll variantını tapmaq məqsədilə müəyyən təşəbbüslərlə çıxış etməyə başladığını və ictimaiyyət qarşısında bunu açıqladığını vurğulayan dövlətimizin başçısı bildirib: "Elan etdik ki, sülh sazişi imzalanmalıdır. Sonra yenə boşluq yarandı. Sonra isə biz sülh sazişin prinsiplərini müəyyən etdik. Onlar ərazi bütövlüyünün, suverenliyin və beynəlxalq sərhədlərin qarşılıqlı tanınması, sərhədlərin delimitasiyası, gücdən istifadə etməmə və ya güclə təhdid etməmə kimi beynəlxalq hüququn tam məlum prinsipləridir. Bu təklifi biz masa üzərinə qoyduq. Biz 30 illik işğaldan əziyyət çəkmiş və ədaləti güc hesabına bərpa etmiş ölkə olaraq yeni sülh prosesinin müəllifi olduq. Deməzdim ki, hər şey çox rəvan gedir. Biz hələ də nikbinik, çünki hazırda biz hər iki ölkənin xarici işlər nazirləri səviyyəsində çox fəal danışıqlar aparırıq".

### "BİZ NƏ BU GÜN, NƏ DƏ GƏLƏCƏKDƏ NÖVBƏTİ MÜHARİBƏ İSTƏMİRİK"

Bəli, Azərbaycan həmişə qalib olub və bu gün də qalib ölkə olaraq şərtləri keçərlidir. Lakin ermənilərin "təbliğat maşın"ı yalan, böhtan, iftira üzərində qurulan bir mexanizmdir. Mənfur ermənilərin "təbliğat maşınıları"nın istehal etdiyi uydurma, saxta məlumatlar əsrlərdən bəri indi də davam edir. Lakin ölkəmizdə düzgün və düşünülmüş şəkildə qurulmuş informasiya təbliğatı sayəsində hər zaman ermənilərin yalanları ifşa edilir, həqiqətlər olduğu kimi dünya ictimaiyyətinə çatdırılır. Prezident İlham Əliyevin informasiya cəbhəsindəki xüsusi fəallığı sayəsində Azərbaycan Ermənistan tərəfindən törədilən ardıcıl təxribatları və erməni yalanlarını sistemli şəkildə, bütün mümkün vasitələrdən istifadə etməklə beynəlxalq arenada ifşa etməyi bacarır.

Azərbaycan Prezidenti İlham Əliyev iyulun 22-də "Euronews" telekanalına verdiyi müsahibədə Azərbaycanla Ermənistan arasındakı münasibətlərdə son vəziyyət və perspektivlərlə bağlı sualları cavablandırmaqla yanaşı bir sıra digər mühüm siyasi proseslərlə bağlı da mövqeyini açıqladı və bu müsahibə konkret tərəflərə ünvanlanmış mesajlarla zəngin idi. Ölkəmiz 44 günlük Vətən müharibəsinin başa çatmasından sonra Cənubi Qafqaz regionunun sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün dayanmadan səylər göstərir. Amma Ermənistan hələ də qeyri-konstruktiv mövqe nümayiş etdirir və bu gün də sülhə əngəl olan məhz Ermənistandır.

### "AVROPA İTTİFAQI ƏN YAXŞI VASİTƏÇİ OLA BİLƏR, ÇÜNKİ BİZİM İTTİFAQLA MÜNASİBƏTLƏRİMİZ QARŞILIQLI HÖRMƏTƏ, ETİMADA VƏ MARAQLARA SÖYKƏNİR"

Prezidentin müsahibəsində diqqət çəkən məqamlardan biri də aparılan danışıqlar və vasitəçilərlə bağlı oldu. Xüsusilə də Avropa İttifaqı vasitəçiliyi ilə aparılan danışıqlara toxunan ölkə başçısı bildirdi ki, Avropa İttifaqı ən yaxşı vasitəçi ola bilər, çünki bizim İttifaqla münasibətlərimiz qarşılıqlı hörmətə, etimada və maraqlara söykənir. Onu da vurğulamaq lazımdır ki, Aİ-nin ədalətli vasitəçi olmasına ümidlər bu birliyin regionda sabitlikdə maraqlı olmasından irəli gəlir. Qurum bölgə ölkələrinin dayanıqlı inkişafında maraqlıdır. Avropa İttifaqı yaxşı başa düşür ki, sülh olmadan dayanıqlı inkişafı təmin etmək faktiki olaraq mümkün deyil. Sözsüz ki, burada Aİ-nin özünün iqtisadi maraqları da vacib rol oynayır. Onu da vurğulamaq lazımdır ki, bölgədə sabitliyə nail olmaq yeni qlobal əhəmiyyətli layihələrin icrası üçün əsas şərtdir. Odur ki, Aİ Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasının tezləşməsinə çalışır. Çünki sülh sazişi nə qədər tez imzalanarsa, bu təkcə Azərbaycan və Ermənistan üçün deyil, Avropa İttifaqının özü üçün də bölgədə yeni imkanlar aça bilər.

Bir məqamı da vurğulamaq lazımdır ki, Azərbaycan üçün vasitəçinin kim olmasından asılı olmayaraq yekin nəticə vacibdir. Prezident İlham Əliyev cənabları da də bu məqama toxunaraq demişdir: "Prosesin kimin tərəfindən aparılacağı və ya prosesi kimin müəyyən dərəcədə inhisara götürəcəyi bizim üçün böyük fərq etmir.

Biz sülh sazişi ilə nəticələnəcək təşəbbüsü irəli sürən hər hansı tərəfi dəstəkləyəcəyik". Dövlət başçımızın bu mesajı faktiki olaraq vasitəçi qismində çıxış edən bütün tərəflərə ünvanlanan mesajdır. Çünki Azərbaycanın mövqeyi bəllidir: ədalətli sülh sazişi ilə nəticələnən təşəbbüsləri dəstəkləmək. Çunk

### "AVROPA İTTİFAQI ƏN YAXŞI "ERMƏNİSTAN ƏRAZİ BÜTÖVLÜYÜMÜZÜ MÜBAHİSƏLƏNDİRƏN BÜTÜN İDDİALARINI KƏNARA QOYSA, TEZLİKLƏ SÜLH VARİANTINI TAPA BİLƏRİK"

Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində Prezident İlham Əliyev bildirib ki, İkinci Qarabağ müharibəsi nəticəsində Ermənistanın imzaladığı sənəddə onun öhdəliyi var ki, bizim Naxçıvan kimi eksklavımıza çıxışımız olsun: "Lakin bu, hələ də baş vermir. Beləliklə, sülh sazişinin əsas bəndləri nazirlər tərəfindən tərtib edilir. Bizim görüş isə hesab edirəm ki, yaxşı mühit yaradır. Lakin əgər biz Ermənistan tərəfindən konstruktiv yanaşma görsək və ən vacibi isə əgər onlar ərazi bütövlüyümüzü mübahisələndirən bütün iddialarını kənara qoysalar, onda biz tezliklə sülh variantını tapa bilərik. Bəlkə ilin sonunadək".

### "MÜHARİBƏDƏ QALİB GƏLMƏK MƏNİM HƏYATIMIN, SİYASİ HƏYATIMIN MİSSİYASI İDİ VƏ O UĞURLA BAŞA ÇATDI. BİZ MÜHARİBƏDƏ QALİB GƏLDİK"

Ölkə başçısı öz müsahibəsində 44 günlük Vətən müharibəsindəki Şanlı Qələbəyə xüsusi olaraq toxunaraq bildirdi ki, "Müharibədə qalib gəlmək mənim həyatımın, siyasi həyatımın missiyası idi və o uğurla başa çatdı. Biz müharibədə qalib gəldik".

"Biz ədaləti və ərazi bütövlüyümüzü bərpa etdik. Ermənistan sülh istəyərsə, biz ona nail olacağıq. Çünki bizim Ermənistana qarşı hər hansı bir ərazi iddialarımız yoxdur. Biz onların da Azərbaycana qarşı ərazi iddialarının olmamasını istəyirik. Qarabağda, hazırda müvəqqəti olaraq rusiyalı sülhməramlıların nəzarəti altında olan ərazidə yaşayan insanlar Azərbaycanda yaşayırlar. Onlar ölkəmizdəki digər çoxsaylı milli azlıqlar kimi Azərbaycan vətəndaşları olaraq yaşayacaqlarına, yoxsa Azərbaycanı tərk edəcəklərinə dair seçim etməlidirlər", – deyə Azərbaycan Prezidenti bir daha diqqətə çatdırdı. Eyni zamanda, ölkə başçımız müsahibəsində açıq şəkildə bəyan etdi ki, Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşı olaraq Konstitusiyamıza uyğun şəkildə ölkəmizdə yaşayan bütün xalqların istifadə etdiyi və faydalandığı hüquqlardan yararlana bilərlər. Əks halda, onlar ölkəni tərk etməlidirlər. Daha dəqiq desək, Qarabağda yaşayan ermənilərin iki yolu var. Təbii ki, Azərbaycan öz Konstitusiyası çərçivəsində bütün xalqların, vətəndaşların hüquqlarını qoruyur və buna təminat verir. Ona görə də bu məsələ bir daha Prezident İlham Əliyevin müsahibəsində xüsusilə qeyd olundu. Laçın yolu ilə bağlı məsələlərdə Azərbaycanın mövqeyi bir daha dünya ictimaiyyətinə çatdırıldı. Azərbaycanın regiondakı dəyişikliklərlə, o cümlədən Ermənistanla bağlı mövqeyi açıq şəkildə bəyan edildi.

Bir sözlə, Azərbaycan Prezidenti İlham Əliyev cənablarının "Euronews"a müsahibəsindəki ciddi mesajlar, cəsarətli, qətiyyətli fikirlər həm Ermənistana, həm də onun havadarlarına xəbərdarlıq kimi də qəbul edilməlidir. Beləliklə, bu gün Ermənilər iki yoldan birini seçməlidirlər. Ya Azərbaycan vətəndaşı kimi öz hüquq və vəzifələrinə sahib çıxmalı, ya da keçmişdə olduğu kimi növbəti dəfə özləri özlərini uydurma "soyqırımına" məruz qoyub torpaqlarımızı tərk etməlidirlər".

***RƏFİQƏ KAMALQIZI***





***Beynəlxalq ictimaiyyətin diqqətini çəkmək, bununla da hansısa qüvvələri bölgəyə dəvət etmək və nəyə isə nail olmaq üçün uydurma məsələlər haqqında, məsələn, Qarabağ iqtisadi rayonunda guya "aclıq", "blokada" kimi əsassız iddiaları dövriyyəyə buraxan Ermənistan, qonşular arasında kasıbçılıqdan, xəstəlikdən və digər bədbəxtliklərdən həmişə şikayət edən və bununla da yerini rahatlamaq üçün manipulyasiya edən hiyləgər arvad kimi hər oyuna əl atır. Sərhədlərin delimitasiyası və demarkasiyasından tutmuş, Ermənistana məxsus silahlı qüvvələrin Qarabağdan çıxarılmasına, sülh müqaviləsinə, Zəngəzur dəhlizinə qədər bütün öhdəlikərini unutmaq və unutdurmaq üçün rəsmi İrəvanın diqqəti başqa uydurma məsələlərə yönəltməsi manipulyasıyadır və bunu artıq dünya ictimaiyyəti də çox yaxşı başa düşür.***

# Manipulyasiya edən ermənilərin MƏNASIZ İNDULGENSİYA ÜMİDİ




Beynəlxalq ictimaiyyət hayların vaxtaşırı hay-küy salmasına bir növ alışqandır. Dünya ictimaiyyəti yaxşı bilir ki, nəzərləri tamamilə başqa istiqamətə yönəltmək üçün diqqəti uydurma problemlərə yönəltmək məqsədi ilə ermənilər ucadan qışqırmaqda, lazım gələndə özlərini məzlum, əzilmiş göztərməkdə mahirdirlər. Quyruqları qapı arasından çıxan kimi özlərini guya döyüşkən, yenilməz, məğrur kimi dünyaya təqdim etmək yolunda bütün hədləri aşan yalançı miflər uyduran ermənilər yenə də quyruqlarını qapı arasında gördükləri zaman ən yazıq "məxluq" olduqları barədə haray-həşir salırlar və kimlərinsə onlara yazıqları gəlsin deyə hər sifətə düşürlər. Birinci Qarabağ savaşında dinc sakinlərin, azərbaycanlıların qanına susayan, əliyalın insanları qətlə yetirən, onları şikəst edən, yurd-yuvalarından didərgin düşməyə məcbur edən biri ermənilər tərəfindən bu vaxta qədər dırnaqarası "qəhrəman" kimi sırınırdısa, indi Azərbaycan tərəfindən saxlanılan həmin o cani, hərbi cinayətkar yazıq, məzlum biri kimi sırınır və guya acı taleyi olan həmin adama hamının yazığı gəlməlidir. Döyüş meydanında əsirlərini də, ölən əsgərlərinin cəsədlərini də qoyub qaçanların, yüzlərlə erməni əsgərinin cəsədini soyuducularda saxlayaraq onları sahiblərinə verməyənlərin indi hansısa bir ermənin taleyi ilə bağlı guya qayğılanması heç də inandırıcı görünə bilməz.

Rəsmi İrəvan oyun oynamaqda davam edir və oyunlarında dəyişiklik belə, fərqlilik belə müşahidə olunmur. Hətta bu oyunları ilə nəyə güvəndikləri, nəyə arxalandıqları belə hər dəfə olduğu kimi, sual doğurur. Ən çox diqqəti cəlb edən və daha çox suallar doğuran da məhz Ermənistanın ənənəvi xarici siyasətidir. Hər dəfə diplomatik görüşlər zamanı sülh barədə danışan Ermənistanın bu istiqamətdə bircə addım belə atmadığı, əksinə, prosesə müxtəlif bəhanələrlə mane olduğu bütün dünyanın gözü önündədir. Göz önündə olan daha bir məqam Ermənistanın bəhanə tapmayanda da hərəkətsizliyidir. Deməli, öz tərzi ilə Ermənistan tərəfi bir daha təsdiq edir ki, sülh barədə ancaq fikir səsləndirir və bununla işini bitmiş hesab edir. Sülh prosesindən yayınmaq üçün isə maksimum dərəcədə səbəb, bəhanə axtarır. Ermənistan fəal şəkildə sülh əhval-ruhiyyəsi ilə bağlı bəyanatlar dərc etməkdən çəkinmir, çünki bu halda həmin ölkədən heç nə tələb olunmur. Amma əməli fəaliyyətə gələndə hər zaman kənarda qalmağa çalışır, ən azından, fəaliyyətsizliklə məsələnin yubanmasına cəhd edir, hansıki səbəbləri də artıq bəllidir.

Hər dəfə Azərbaycan meydanda aktiv addımlar atanda Ermənistan əsassız da olsa belə Bakını tənqid etməyə başlayır, çünki məqsədi sülhə gedən yolda maneələr yaratmaqdır. Əslində, ermənilərin bunu nəyə görə etdiyi də sirr deyil. İstər Köçəryanın, istər Sarkisyanın, istərsə də Paşinyanın hakimiyyəti dövründə yeridilən erməni siyasətində fərq görünmür, çünki bütün bu hakimiyyətlər dövründə erməni cəmiyyətinin istəkləri, yenə də başqalarına məxsus olanı mənimsəmə ön planda durur. Bundan əvvəlki hakimiyyətlərdə olduğu kimi, indiki Ermənistan hakimiyyəti də hayların başqalarının torpaqlarını mənimsəmək kimi arzuları ilə bağlı nəyə isə nail olmağa çalışır. Belə demək mümkünsə, Ermənistanda hər bir hakimiyyət özündən əvvəlkilər qarşısında özünü mükəlləf hesab edir, başqalarına məxsus olanı mənimsəməkdə nəyə isə nail olub-olmamasına görə guya cavabdehlik daşıyır və indi erməni baş nazir də bu mənada özünü oda-közə vurduğunu ən azından göstərmək niyyətindədir. Paşinyanın hər dəfə danışıqları ləngitməsi, müxtəlif bəhanələrlə həmin danışıqları uzatması bir növ, yenə də daxili auditoriyaya hesablanmış addımdır. Nikol da göstərmək istəyir ki, guya ermənilər üçün çalışır, amma bunun mənasız olduğunu özü hamıdan yaxşı bilir.

Bilirik ki, haylar tarix boyu torpaq, vətən arzusu ilə müxtəlif miflər formalaşdırıblar və bu miflər üzərində qurulan çirkin siyasət bu gün də davam edir. Guya dənizdən dənizə torpaq sahibi olmaları barədə uydurmaları dövriyyəyə buraxanlar özlərindən sonrakı nəsilləri elə bir çətin vəziyyətdə qoyublar ki, indi Paşinyan özü də bu çətinliyin öhdəsindən necə gələcəyini heç ağlına da sığışdıra bilmir, baxmayaraq ki, bu yolda nə isə etdiyini göstərmək istəyir. Sanki, indi ermənilər, hazırki Ermənistan hakimiyyəti özlərindən əvvəlki nəsillərin Azərbaycanın və ətraf ərazilərin torpaqlarını mənimsəmək kimi bir "vəsiyyət"i qarşısında borclu sayırlar və 44 günlük müharibədəki rüsvayçı məğlubiyyətlərindən sonra günahkar belə hesab edirlər. Eyni ilə kilsə qarşısında özlərini günahkar hesab edənlər kimi özlərini günahkar bilirlər. Bəlkə də bəhanələr uydurmaq, müxtəlif əsassız iddiaları irəli sürməklə, eyni ilə katolik kilsələrdə günaha görə müvəqqəti cəzalardan azad olunma, indulgensiya ümidi olanlar kimi bağışlanmaya ümid edirlər, amma bərk yanılırlar və məsələnin mənasızlığını dərk etmirlər.

İrəvan əvvəlki kimi, sərhəddə vəziyyəti formal da olsa, "müharibə yox, sülh" vəziyyətində saxlamaq niyyətində görünür. Hətta məğlubiyyətlərini tam deyil, "natamam" göstərmək üçün də prosesin uzadılmasına çalışırlar. Azərbaycan erməni hərbi cinayətkarlarını müəyyən edib saxlamağa başlayanda, Ağdama, oradan da Xankəndinə qədər məntiqi əsaslandırılmış yol təklifi edəndə yenə də maneçilik etməyə cəhd olunduğu görünür. İşğalçı ölkənin əsassız iddiaları, məntiqsiz fikirləri də bu baxımdan səbəbsiz deyil, nəyi isə dayandırmaq, nəyi isə dəyişmək niyyətini ifşa edir. Bəli, ermənilər hazırda mövcud olan aralıq statuskvoda faydaları itirməkdən qorxurlar, amma bu onlara əsas vermir ki, ağıllarına gələni etsinlər. Bu onlara əsas vermir ki, boş bəyanatlar verməkdə davam etsinlər. Onsuz da Azərbaycan Qarabağı və Şərqi Zəngəzuru dirçəltmək, təhlükəsizliyini təmin etmək üçün öz sülh proqramını ardıcıl şəkildə həyata keçirəcək və politoloqların, ekspertlərin fikrincə də buna ermənilər mane ola bilməyəcəklər. Ermənistan buna qarşı çıxa bilməyəcək, ancaq şifahi şəkildə, maksimum halda sosial şəbəkələrdə və rəsmi bəyanatlarda narazılıq ifadə edə biləcəklər, hansıki bunu özləri də yaxşı başa düşürlər. Deməli, etdiklərinin mənasız olduğunu bilə-bilə, yəni bilərəkdən dirəniş göstərirlər. Maraqlıdır, nəyə görə belə edirlər?

Hadisələrin gedişi onu göstərir ki, gələcəkdə Azərbaycan Zəngəzur dəhlizinin özünə məxsus hissəsinin tikintisini başa çatdıracaq, Ermənistan isə öz növbəsində bir dənə də olsun dəmir yolu çəkməyəcək, deməli, bu işğalçı ölkənin indiki səyləri, prosesi uzatmaq səyləri əbəsdir və bunu özləri də bilirlər. O zaman niyə erməni separatçılarının silahlı birləşmələrinin Qarabağdan çıxarılması, eyni zamanda, hərbi cinayətlərdə təqsirli olan insanların saxlanılıb həbs olunmasının labüdlüyü Ermənistan tərəfindən qəbul olunmamalıdır? Azərbaycan vətəndaşlığını qəbul edən erməni əsillilərə yaşayışlarının, təhlükəsizliklərinin təminatı ilə bağlı ölkə rəhbərinin dedikləri niyə başa düşülməməli, qəbul edilməməli, Ermənistan tərəfini bu niyə narahat etməlidir? Vaqif Xaçaturyan kimi hərbi cinayətlərdə iştirak edənlərin artıq Azərbaycanı tərk edə bilməyəcəklərinə görə niyə kimlər isə narahat olmalıdır? Danışıqları mümkün qədər uzatmaq və eyni zamanda Qərb üçün dırnaqarası, "aclıq", "blokada" kimi həssas mövzulara müraciət etmək kimə lazımdır və nə üçündür?

Görünür, ermənilər öz qarşılarında hələ də "mühüm" vəzifə olduğunu düşünürlər və kimlərinsə torpaqlarını işğal altında saxlaya bilmədiklərinə görə özlərini günahkar hesab edirlər. Elə bu günah saydıqları cəfəngiyyatdan da dolayı "cavavdeh" olduqlarını zənn edirlər, guya bağışlanmaları üçün əllərindən gələn bütün bəd əməllərə, eləcə də yanlışlıqlara əl atırlar. Az qala "cənnət qəbzi" də adlandırılan, indulgensiya, yəni cəzadan azad olma haqqında "arayış" ümidində olmaq sərsəm təxəyyülün, cəfəngiyyatın, axmaqlığın təzahürüdür. Ermənistan tərəfinin istənilən halda müharibə üçün kifayət qədər resursunun olmadığını bilə-bilə danışıqları uzatması, mane olması ancaq erməni xislətinə məxsus ola bilərdi ki, bunun da səbəbi elə axmaq, mənasız təxəyyüldür. İşğalçı ölkədə saxtakarlıq, panik əhval-ruhiyyənin yayılması və qəsdən qarşıdurma dərəcəsinin yüksəldilməsi, diqqəti özünə və problemlərinə yönəltmək də səbəbsiz deyil, manipulyasiya etmək deməkdir. Amma bu manipulyasiyalara ümid etmək, acgözlük və başqalarına məxsus olanı mənimsəmək təfəkkrünü qoyub gedən əcdadları, eləcə də hər dəfə erməniləri qonşuları ilə düşmənçiliyə sürükləyən kilsələri qarşısında günaha görə müvəqqəti cəzalardan azad olunma ümidi böş və mənasızdır, hansıki onları cəzaya deyil, birbaşa məhvə aparır.

***İnam Hacıyev***

# Qarabağ ermənilərinin xilas yolu - Azərbaycan qanunlarına tabe olmaq!

***İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra xalqımızın uzun illər ərzində məruz qaldığı əzab-əziyyətə, məhrumiyyətlərə və dağıntılara baxmayaraq, qalib ölkə olaraq Azərbaycan tərəfindən Ermənistanla davamlı sülhün təmin edilməsi istiqamətində fəal iş aparılır.***





PHOTO | Aram Nersesyan

Qalib Komandan kimi Azərbaycvn Prezidenti İlham Əliyev hər zaman açıqlamalarında bildirir ki, sülhün qorunması, sabitliyin möhkəmləndirilməsi, dinc birgə yaşayışın təmin edilməsi, barışıq gündəliyinin irəli sürülməsi regionda əməkdaşlığa və iqtisadi inkişafa sərmayə qouluşu üsün real zəmin yaratmış olacaq. Və

### ERMƏNİSTAN SÜLH MÜQAVİLƏSİNİN YEGANƏ ÇIXIŞ YOLU OLDUĞUNU ANLAYIR

Prezident İlham Əliyev iyulun 22-də Şuşada "Euronews" televiziyasına müsahibə zamanı ölkə başçımız bir sıra vacib məqamlara toxunub. Dövlətimizin başçısının da vurğuladığı kimi, 10 noyabrda imzalanan sənəd Bəyanatdır, sülh müqaviləsi deyil. Azərbaycan sülh müqaviləsinin bağlanmasında maraqlı olan tərəfdir.

Azərbaycan ərazi bütövlüyünü bərpa etdikdən sonra sülhü təşviq edir, çünki regionumuzun sabitliyini, onun davamlı inkişafını istəyirik. Daima irəli getmək, Ermənistanla qonşu ölkə kimi normal yanaşı yaşamaq istəyirik. Etnik mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşlarının təhlükəsizlik hüquqlarına zəmanət veririk. Ölkə başçısı Prezident İlham Əliyev iyulun 22-də Şuşada "Euronews" televiziyasına müsahibəsi zamanı bir daha sülhün vacib olduğunu vurğuladı və Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilərə, erməni icmasına və Ermənistandakı ermənilərə bir sıra vacib mesajlarını çatdırdı.

Dövlətimizin başçısı xüsusi vurğuladı ki, "Ermənistan hökuməti üçün seçim çox pis və qəbulolunan arasındadır ki, qəbulolunan seçim sağlam düşüncəyə, beynəlxalq hüquqa və azərbaycanlıların 30 il ərzində məhrum edildikləri öz torpaqlarında yaşamaq hüququnun tanınmasına əsaslanır."Eyni zamanda Prezident İlham Əliyev Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni azlıqlarınada mesajını çatdıraraq qeyd etdi ki, "Qarabağdakı ermənilərə gəlincə, onlar qondarma liderlərinin arxasınca getməməlidirlər. Qarabağda, hazırda müvəqqəti olaraq rusiyalı sülhməramlıların nəzarəti altında olan ərazidə yaşayan insanlar Azərbaycanda yaşayırlar. Onlar ölkəmizdəki digər çoxsaylı milli azlıqlar kimi

**PREZİDENT İLHAM ƏLİYEV: "Əgər düzgün seçim etsələr, onlar da Azərbaycan cəmiyyətinin bir hissəi olaraq normal həyat yaşayacaqlar"**



Azərbaycan vətəndaşları olaraq yaşayacaqlarına və ya Azərbaycanı tərk edəcəklərinə dair seçim etməlidirlər. Bu, onların seçimidir. Biz bunu onların buranı tərk etməsini istədiyimizə və ya Ermənistanın bizi etnik təmizləmə siyasəti aparmaqda günahlandırdığına görə etmirik. Biz onlara seçim hüququ veririk."Çünki bu gün Azərbaycan bütün dünyada sülhsevər ölkə olaraq tanınır. Və erməni havadarları istisna olmaqla bütün dünya İkinci Qarabağ müharibəsinin Azərbaycanın öz ərazi bütövlüyü uğrunda apardığı haqq savaşı olduğunu qəbul edir. Bunlarla yanaşı, qalib ölkənin öz düşməninə sülh təklif etməsi də görünməmiş hadisədir. Lakin bütün bunların fonunda qarşı tərəfin Azərbaycanın bu humanist addımını qiymətləndirməməsi yalnız onun sülh tərəfdarı olmadığının, əmin-amanlığı, təhlükəsizliyi təhdid etdiyinin göstəricisidir.Azərbaycan yeganə ölkədir ki, qalib ölkə olsa da, düşməninə sülh təklif edir, regionda əmin-amanlığın, təhlükəsizliyin bərqərar olmasına çalışır. Sülh müqaviləsi imzalanacaqsa bu yalnız Azərbaycanın təklif etdiyi 5 baza prinsipi əsasında imzalanacaq. Dövlətimizin başçısının da qeyd etdiyi kimi, bizim sülh istədiyimiz ona görə deyil ki, biz zəifik və sülh axtarırıq. Xeyr, onlar bilirlər ki, biz xeyli güclüyük. Bu ona görədir ki, biz tarixin bu qara səhifəsinin bağlanmasını istəyirik. Biz nə bu gün, nə də gələcəkdə başqa bir müharibə istəmirik.

Məlumdur ki, ölkəmiz 5 prinsipdən ibarət olan sülh paketini Ermənistana təqdim edib. Sülh müqaviləsi ölkələrin ərazi bütövlüyü və suverenliyi çərçivəsində reallaşmalıdır. Dövlətimizin başçısının qeyd etdiyi kimi, 30 illik işğal nəticəsində Qarabağ və Şərqi Zəngəzurda olan yaşayış məntəqələri demək olar ki, tamamilə dağıdılıb. Ağdam, Füzuli yerlə-yeksan edilib, xarabalığa çevrilib. Bu gün Azərbaycan işğaldan azad edilmiş əraziləri öz daxili vəsaiti hesabına yenidən qurur və bərpa edir.Prezident İlham Əliyevin "Euronews" televiziyasına verdiyi müsahibəsində həm Qərbə, həm də beynəlxalq təşkilatlara ünvanlanan bir sıra mühüm mesajlar da yer alır. Belə ki, müsahibədə o da bildirilir ki, Azərbaycan, həmçinin Avropa İttifaqı ilə Ermənistanla sülh müqaviləsinin imzalanması barədə danışıqları davam etdirir. Şübhəsiz, Azərbaycan separatizmə qarşı Qərbin Ukraynaya olan dəstəyinin məhz Cənubi Qafqazda da reallaşmasını istəyir. Çünki bir tərəfdən Avropa İttifaqı, Qərb, eləcə də aparıcı dövlətlər Ukrayna məsələsində vahid mövqe nümayiş etdirdilər. Azərbaycan da uzun müddət torpaqları işğala məruz qalan ölkələrdən biri olub və burada hələ də separatizm meyilləri mövcuddur. Bu ölkələrin Qarabağ məsələsində də oxşar mövqe nümayiş etdirməsi çox vacib idi və indi də vacibdir.

Təbii ki, Azərbaycan Prezidenti bu məsələni bir daha diqqətə çatdırdı. Eyni zamanda, ölkə başçımız müsahibəsində açıq şəkildə bəyan etdi ki, Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşı olaraq Konstitusiyamıza uyğun şəkildə ölkəmizdə yaşayan bütün xalqların istifadə etdiyi və faydalandığı hüquqlardan yararlana bilərlər. Əks halda, onlar ölkəni tərk etməlidirlər. Daha dəqiq desək, Qarabağda yaşayan ermənilərin iki yolu var. Təbii ki, Azərbaycan öz Konstitusiyası çərçivəsində bütün xalqların, vətəndaşların hüquqlarını qoruyur və buna təminat verir. Ona görə də bu məsələ bir daha Prezident İlham Əliyevin müsahibəsində xüsusilə qeyd olundu.

### "QARABAĞDAKI ERMƏNİLƏR QONDARMA LİDERLƏRİNİN ARXASINCA GETMƏMƏLİDİRLƏR"

Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində vurğulayıb ki, Qarabağdakı ermənilər qondarma liderlərinin arxasınca getməməlidirlər: "Bu "liderlər", - hazırkı və bundan əvvəlki "liderlər", - onlara bütün bu müddət ərzində - müharibədən əvvəl, müharibə zamanı qalib gəldiklərini deyəndə yalan danışıblar. "Hətta biz Şuşaya nəzarəti ələ alanda onlar deyirdilər ki, Şuşa onların nəzarəti altındadır. Onlar bunu çox yaxşı bilirlər. Onlar Xankəndində hakimiyyəti ələ keçirmiş və əsas məqsədi öz maraqlarını güdmək olan bugünkü rejimin girovuna çevrilməməlidirlər".Prezident qeyd edib ki, Qarabağ erməniləri başa düşməlidirlər ki, təhlükəsizlik təminatları, hüquqlarının, o cümlədən təhsil, mədəniyyət, dini, bələdiyyə hüquqlarının təmin edilməsi ilə Azərbaycan cəmiyyətinin bir hissəsi olaraq normal həyat yaşayacaqlar: "Onlar manipulyasiyanın girovu olmağa son qoyacaqlar. Həmçinin onlar başa düşməlidirlər ki, bizi saymamağa davam etsələr, bizim mövcud olmadığımız kimi davranmağa davam etsələr və ya "prezidenti", "nazirləri", "parlamentariləri" olan qondarma ölkədə yaşayırlarmış kimi davransalar, bu gün olduqları vəziyyət onların xeyrinə dəyişməyəcək. Bütün bunlar yalandır. Biz onlara normal həyat təklif edirik. Düşünürəm ki, onlar mənə qulaq assalar başa düşəcəklər və bilirlər ki, mən sözümə əməl edirəm".

***RƏFİQƏ KAMALQIZI***

*Ölkəmizin Dağlıq Qarabağda və ətraf ərazilərdə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə erməni işğalçıları üzərində qazandığı hərbi-siyasi Zəfər xalqımızın çoxəsrlik tarixinin ən böyük tarixi hadisəsidir. Dağlıq Qarabağda və ətraf rayonlarda qazanılmış böyük Zəfər məhz Azərbaycan naminə, Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan müharibənin parlaq hərbi-siyasi yekunu, möhtəşəm nəticəsidir. Ona görə də bu müharibə haqlı olaraq xarakteri etibarilə Vətən müharibəsi adlandırılır. Bu müharibənin Ali Baş Komandanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, icraçısı isə Müzəffər Azərbaycan Ordusu və Azərbaycan əsgəridir.*



# Arzu, istək, sevinc, fərəh dolu YOLLAR

REPORTAJ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Avqustun 9-da növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı “Qobu park 3” yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Laçın şəhərinə daha 23 ailə - 93 nəfər köçürülüb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Daha da gözəlləşən və abadlaşan Laçın şəhərinin sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildiriblər, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad ediblər.

Köçürülən ailələr Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar. Bununla da Laçın şəhərində 203 ailə, yeni 793 nəfərin daimi məskunlaşması təmin edilib.

SƏS TV əməkdaşları doğma yurduna qayıdan Laçın sakinlərinin təəssüratlarını öyrənib.



**Laçın sakini Arif Paşayev:** ”73 yaşındayam, həsrətlə bu günləri gözləyirdim. Nəhayət ki, Laçın qayıdırıq. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etdi. Artıq Laçın azaddır. Bu gün də biz doğulub boya-başa çatdığımız yerlərə- Laçına qayıdırıq. Sevincimin həddi-hüdudu yoxdur. İşğaldan sonra ilk dəfədir ki, Laçına yollanırıq”.

**Laçın sakini Əbdül Cəfərov:**



”Otuz ildən artıq bir zamandır ki, torpaqlarımızdan uzaq düşmüşdük. Bu gün isə çoxdandır gözlədiyimiz xəyallarımız gerçəkləşir. 32 yaşım olanda Laçından çıxarılmışıq. Laçına qayıtmağın sevincini sözlə təsvir etmək olmur.

Bizim üçün yaradılan şəraitlə görə dövlətimizin başçısına, torpaqlarımızın azadlığı uğrunda əziyyət çəkən igidlərimizə təşəkkür edir, şəhidlərə rəhmət diləyirəm”.

**Laçın sakini Əli Vəliyev:** ”Bu gün qızım, böyük oğlum və mən



Laçına gedirik. Doğma yurdumu yenidən görəcəyim üçün çox sevincli və həyəcanlıyam. Allaha şükürlər olsun ki, öz torpaqlarımıza gedirik. 30 ildən artıq müddətdən sonra öz yurduna qayıtmaq, orada yenidən yaşamağa başlamaq məni xoşbəxt edəcək. Gənclərə tövsiyə edirəm ki, daim torpaqlarımızın keşiyində dursunlar, onu qorusunlar”.



**Laçın sakini Səbinə Quliyeva:** ”Öz evimizə-elimizə qayıtmaq çox gözəl duyğulardır. Laçından çıxan vaxt 13 yaşım olub, 45 yaşında isə öz yurduma qovuşuram. Allahdan bütün şəhidlərimizə rəhmət diləyir, qazilərimizə cansağlığı arzulayır, dövlətimizə, bizim yurdumuza qayıtmağımızda əməyi keçən hər bir şəxsə təşəkkür edirəm. Şükürlər olsun, bütün arzu edənlər öz yurdlarına qovuşsunlar”.

**Laçın sakini Firuzə Həsənova:** ”Şəhidlərimizin, qəhrəman övladlarımızın qanı bahasına bu gün biz Laçına sevinə-sevinə qayıdırıq. Azad olunmuş torpaqlarımızda qəhrəmanlarımızın izi,



qanı var. Laçını tərk edən zaman 46 yaşım olub. Həmin vaxt oğlum səngərdə döyüşüb. İndi isə veterandır. Kədərliyik. Yaxınlarımızı itirmişik, qardaşlarım vətən həsrəti ilə dünyadan köçüblər, şəhidlər vermişik. Buna baxmayaraq, sevinirik. Çünki doğma yurda qayıdırıq.

Bütün Azərbaycan bizim ana torpağımız, vətənimizdir. Allah Prezidentimizə cansağlığı versin, şəhidlərimizə rəhmət etsin, qazilərimizə can sağlığı versin. Allah bir daha Azərbaycana müharibə göstərməsin”.



**Laçın sakini Təyyarə Teymurova:** ”Əhdim odur ki, torpağımı, qəbirlərimizi ayaqyalın ziyarət edim.

45 yaşında Laçını ağlaya-ağlaya tərk etmişəm. İndi isə 77 yaşımı 22 avqustda Laçında sevinə-sevinə qeyd edəcəyik.

Allah Prezidentimizin başını uca etsin, cansağlığı versin. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə can-sağlığı versin. Allah Azərbaycanımızı qorusun”.



**Laçın sakini Reyhan Zeynalova:** ”Bu günü bizə yaşatdığı üçün cənab Prezidentimizə dərin təşəkkür edirəm. Bu günləti bizə yaşadan şəhidlərimizin ruhu qarşısında baş əyirik. Qazilərimizə isə cansağlığı arzu edirik.

Laçından çıxanda çox gənc idik. 31 ilin hər gecəsini Laçının həsrəti ilə yaşamışıq. Bu gün isə sevinc və həyəcanla yurdumuza qayıdırıq. Allah bizə orada elə gözəl günlər nəsib etsin ki, Prezidentimizin və şəhidlərimizin çəkdiyi əziyyətlərin əvəzini verə bilək. Laçını əvvəlki gözəl günlərinə geri döndürəcəyik”.



**Laçın sakini Emin Paşayev:** ”Bu günə şükür. Torpaqlarımıza qovuşuruq və çox sevincliyik. O gün olsun bütün yurdundan didərgin düşənlər bu günü yaşasınlar. Allah Prezidentimizin canını sağ etsin”.

Laçın sakini Elmira Abbasova: ”Həm ayrılıq, həm də vətənə qayıdış. Bundan gözəl hiss yoxdur. Allah şəhidlərimizə rəhmət etsin.



Onların ruhu qarşısında baş əyirik.

Laçına gedəndə ilk olaraq torpağımı öpmək istəyirəm. Əsas odur ki, qaçqın adı üstümüzdən götürülür”.



**Laçın sakini Təranə Dadaşova:** ”Bu gün anamgil vətənə köçür. Laçın bizim üçün çox müqəddəsdir. Mən bütün şəhid ailələri və qazilərimizdən halallıq istəyirəm ki, gedib orada rahat yaşayaq. Allah ordumuzu qorusun”.



**Laçın sakini Gülnar Dadaşova:** ”Mən əslən Laçınlıyam, amma Şuşa sakiniyəm. Qismət olsa bu torpaqlarda müəllim kimi çalışmaq istəyirəm.

Əlimizdən tutub gətirən atalarımız bu gün torpaq altındadır. Biz onları qəlbimizdə daşıyırıq. Bu günü şəhidlərimizə borcluyuq. Allah bütün şəhidlərə rəhmət etsin, ordumuzu və xalqımızı qorusun. Bir də başımıza belə müsibətlər gəlməsin”.

***Ayşən Vəli***





PROBLEM



# Tərləyən avtobus, qoxuyan metro: nə etməli?

*İctimai nəqliyyatda və qapalı məkanlarda bədən qoxusu problemini necə aradan qaldırmalı?*



***İnanılmaz dərəcədə isti keçən yay fəsli həddən çox tərləməyimizə səbəb oldu. İnsan tər ifraz etdikcə həmin maye dəridəki bakteriyalarla qarışır və nəticədə bədən qoxusu yaranır. Tərləmə, insan bədəninin temperaturu tənzimləmə üsuludur. Tər özü faktiki olaraq qoxusuz olsa da, bakteriyalar ondan münbit çoxalma vasitəsi kimi istifadə edir və sürətlə çoxalırlar.***

### Niyə tərləyirik?

Bədənin pis qoxusu, keratin zülalının bakteriyalar tərəfindən parçalanması zamanı dərinizin səthində yaranan bakteriyalara aiddir. Tərdən yaranan bədən qoxusu tibbdə "bromhidroz" adlandırılır. Bədənimiz başqalarının xoşlamadığı bir qoxu yaydıqda buna bədən qoxusu deyilir. İnsan həddi-büluğa çatdıqda heç bir tədbir görülməzsə, adətən bədən qoxusu yaranır. Piylənmədən əziyyət çəkən insanlarda, müntəzəm olaraq ədviyyatlı qidalar qəbul edənlərdə və şəkərli diabet kimi müəyyən xəstəlikləri olan insanlarda bədən qoxusu daha çox yaranır.

Çox tərləyən insanlar, yəni hiperhidroz olanlar da bədən qoxusuna qarşı həssas ola bilərlər. Bununla belə, tərin duz səviyyəsi çox vaxt bakteriyaların parçalanması üçün çox yüksək olur. Bu, həddindən artıq tərləmənin hansı bölgədə baş verdiyindən və hansı növ tər vəzilərinin bu prosesdə iştirak etdiyindən asılıdır.

Bədən qoxusu yetkinlik dövründə "androgen" adlanan hormonların artması səbəbindən başlayır. Bu hormonlar yetkinlik yaşına qədər aktiv deyil. Buna görə də, kiçik bir uşaq olanda bədən qoxusu problem deyil. Bu hormonlar aktiv olduqdan sonra ar məşq, isti hava, artıq çəki, hormonlarda dəyişikliklər, diabet, qaraciyər xəstəliyi və ya böyrək xəstəliyi kimi müəyyən sağlamlıq problemləri, bəzi dərmanlar, məsələn, antidepresantlar, pəhriz, bəzi yağlı qidalar, yağlar və ya sarımsaq, soğan kimi kəskin qoxulu qidalar məsamələrinizdən sızaraq bədən qoxusuna səbəb ola bilər.

### Qoxu ən çox harada yaranır?

Bədən qoxusunun ən çox yayıldığı nahiyələr ayaq, qasıq, qoltuqaltı, cinsi orqanlar, göbək, anus, qulaqların arxasıdır. Bu bölgələrdə bütün bədəndən fərqli xüsusiyyətlərə malik tər vəziləri (apokrin) var və bədən qoxusu digər bədən hissələrinə nisbətən daha kəskindir.

Bədən qoxusu fərddən fərdə fərqli qoxu verə bilər və insanları tanımağın bir üsulu kimi istifadə edilə bilər. Xüsusən də bədən qoxusundan itlər və digər heyvanlar tərəfindən müəyyən etmək üçün istifadə edilə bilər. Hər bir insanın özünəməxsus bədən qoxusuna pəhriz, cinsiyyət, sağlamlıq və dərmanlar təsir edə bilər.

Bədən qoxusu, adətə,n qoltuqaltı ilə əlaqəli olsa da, bakteriyalar da qasıqda, anus nahiyəsində, yuxarı budlarda və ayaqlarda və digər yerlərdə qoxuya səbəb ola bilər. Bu nahiyələr apokrin tər vəzilərinin sıx olduğu yerlərdir və bu nahiyələrin tez-tez nəm parça və sabunla yuyulması bədən qoxusunun qarşısını ala bilər. Qoxulu ayaqlar da ayaqqabı qoxusuna səbəb ola bilər. Ayaqqabılarınızı hər yerdə olan ayaq dezodorantı ilə təmizləsəniz bu sizin kəskin ayaq qoxusundan qurtulmağınıza da kömək edə bilər.

Qeyd etdiyimiz kimi, bədən qoxusu, bakteriyaların təri parçalaması nəticəsində yaranır və əsasən apokrin vəzlərlə bağlıdır. Yəni çoxlarının şikayətləndiyi bədən qoxusunun səbəblərinin əksəriyyəti təri parçalayan bakteriyalardır.

### Bədən qoxusunun müalicəsi

Bədən qoxusu həm insanın özü üçün, həm də yaxın və ya uzaq ətrafı üçün narahatedici ola bilər. Bu problem səbəbindən ailələr dağılır, boşanmalar olur. İctimai nəqliyyatda, iş yerlərində, qapalı məkanlarda bu qoxudan narahat olanlar çoxdur. Bədən qoxusunu müalicə etmək üçün həm həkim yardımından istifadə edə bilərsiniz, həm də təbii yollarla buna nail ola bilərsiniz.

Bədən qoxusuna qarşı mübarizə aparmaq üçün hidrogen peroksid və su məhlulunu sınayın. 1 stəkan suya 1 çay qaşığı peroksid (3%) istifadə edin. Bunu qoxunun ən çox yarandığı nahiyələrə (qoltuq, ayaq, qasıq) bir parça yardımı ilə tətbiq edin. Bu, qoxuya səbəb olan bəzi bakteriyaları məhv etməyə kömək edə bilər. Əgər məşqdən gələn tər bədən qoxusunun səbəbidirsə, məşq paltarlarınızı teztez yuyun. Tərli idman paltarları bakteriyalar üçün çoxalma yeridir.

Bədən qoxusunu azaltmaq üçün pəhrizinizi, qida rasiononuzu dəyişdirin. Bədən qoxusuna səbəb ola biləcək qida növlərini yeməkdən çəkinin. Ancaq pəhrizinizdə hər hansı əsas dəyişiklik etməzdən əvvəl həmişə həkim ilə danışın.

Bədən qoxusunu müalicə etməyin ən yaxşı yolu onun yaranmasının qarşısını almaqdır. Qoxusuz olmaq istəyirsinizsə, xüsusilə bu isti havalarda hər gün duş qəbul etməyiniz vacibdir, bəzən bunu səhər və axşam etmək lazımdır. Paltarlarınızı bir dəfə istifadədən sonra yuyun. Kəskin qoxulu qidalardan uzaq durun. Yatmazdan əvvəl antipersperant tətbiq edin. Bu, tərləmədən tətbir görmək deməkdir ki, növbəti gün nəticəsi yaxşı olur. Tərə qarşı olan dezodorantlar tərləmənin qarşısını almır, sadəcə dərinizdə yaranan bədən qoxusunu gizlədir. Antipersperantlar isə tərləməni azaldan kimyəvi maddələrdir. Bir çox antipersperant preparatların tərkibində qoxunu maskalamağa kömək edən dezodorant da var. İstifadə etdiyiniz məhsulu alarkən yoxlayın ki, tərkibində tər əleyhinə və dezodorant olsun. Qoltuqlarınızı quru saxlayın. Bədənin quru bölgələrində bakteriyaların çoxalması çətinləşir. Müntəzəm olaraq qoltuqlarınızı təraş etmək bakteriya yığılmasının qarşısını almağa kömək edir və təri, qoxunu azalda bilər.

### Stress bədən qoxusu yaradır

Gündəlik həyatımız və iş rejimimiz bizi davamlı olaraq stress altında yaşamağa məcbur edir. Hər yerdə stress keçirə bilərik – evdə, ictimai nəqliyyatda, işdə, mağazada və s. Stress və narahatlıq bəzən daha çox tərləməyə və daha güclü bədən qoxusuna səbəb ola bilər. Hiperhidroz (həddindən artıq tərləmə) pozğunluğunuz varsa, bəzən heç bir səbəb olmadan həddindən artıq və nəzarətsiz tərləyə bilərsiniz. Bəzi insanlar genetik səbəblərdən və ya müəyyən tərkibli dərman qəbul edərkən bədən qoxusunun artmasına da səbəb olur.

2016-cı ildə aparılan bir araşdırmaya görə, hiperhidroz və stress birbirinə bağlıdır. Bu vəziyyəti yaşayan bir çox insan stress yaşayır, xüsusilə də həddindən artıq tərləmə səbəbiylə stress, tərləməni daha da artırır və bədən qoxusunu çoxaldır. Ruhən dinc olmaq, sakit həyat tərzi keçirmək tərləməyə də öz təsirini göstərir, stressdən uzaq yaşayan insan daha az tərləyir və bədən qoxusu daha xəfif olur.

***Lalə Mehralı***



**Vəli VƏLİYEV**

# Erməni səlibçilər

Avropalıların xaçlı yürüşlərinin tarixi min il bundan əvvələ gedib çıxır. Hər şey "qoca qitə"nin zadəganlarının heç vaxt görmədikləri "Müqəddəs Torpağa" gedərək "İsanın qəbrini xilas etmək"dən başlamışdı. Əslində isə Avropanın ticarətlə məşğul olan dairələri Yaxın Şərqdəki mühüm strateji məntəqələri əldə etməkdə maraqlı idilər. Çünki, müsəlman hakimləri yolların idarəsini əlində saxlayır və onlardan xeyli gömrük rüsumu alırdılar. Beləliklə onlar da "Səlib yürüşü" ideyasını dəstəkləməyə başlamışdılar. Bir az da dərinə getsək, Avropalıların başlatdıqları "səlib yürüşləri" yeni torpaqlar əldə etmək, sərvətlər toplamaq, vardövlət yığmaq məqsədi daşıyırdı. Bu, Avropanı əlində saxlayan barbar feodalların, zadəganların Roma Papasından aldıqları xeyir-duadan qaynaqlanan planları idi. Din faktoru sadəcə, bəhanə isi, səbəb isə

Bu gün "xaçlı yürüşləri"nin müasir forması sayılan Ermənistan adlı qondarma dövlətin planları isə türk-müsəlman ölkələrinin tam ortasından başlayaraq yeni-yeni ərazilər ələ keçirmək, xaş gəzdirənlərin yolunu təmizləmək, nəticədə regiondakı varlı ölkələrin sərvətini talamaqdır. Yadımıza I Qarabağ müharibəsini salaq, erməni silahlıları hücuma keçməzdən əvvəl yerli azərbaycanlıların silahları əllərindən alınır, onlar tam tərksilah edilir, bir sözlə ermənilər sürətlə, heç bir müqavimətə rast gəlmədən ard-arda rayonlarımızı, şəhər və kəndlərimizi işğal edir, ən əsası isə yerli əhalini ya öldürür, ya da yurdundan didərgin salır, varını, dövlətini talayır. Daha dəhşətlisi isə onlara aid mülkləri əvvəlcə talayır, sonar isə evləri sökür, vandallıq edidilər. Deməli ermənilərə bu torpaqları ələ keçirmək orada yaşamaq üçün deyil, yalnız var dövlətinə yiyələnmək lazım idi. Maraqlısı da budur ki, 1988-94-cü illərdə azərbaycanlılara qarşı qətliamlar törədiləndə, torpaqlarımız işğal ediləndə Avropa və avropalılar susdular, baş verənləri görməzdən gəldilər. Və bu gün ermənilərin təbliğatına uyaraq Azərbaycanı guya Qarabağda "humanitar fəlakət" yaratmaqda ittiham edənlər o vaxt dünya ölkələri tərəfindən Azərbaycanın ərazisi kimi tanınan Şərqi Zəngəzur və Qarabağda soydaşlarımızın mülkiyyətini, onlara aid olan nə varsa hamısını əllərindən alır, işgəncələr verir, əsir götürür və öldürürdülər. İndi dil açan dünya isə o vaxt susmağa üstünlük verirdi.

Bu gün Azərbaycan 44 günlük müharibədə ədaləti bərpa edib, torpaqlarımızı azad, yurdumuzu abad edib. Hökumət ərazilərimizdə Ermənistan və ermənilərin məhv etdiklərini yenidən inşa edir və həm də heç bir kənar maliyyə mənbələrindən istifadə etmədən, yalnız öz gücünə Qarabağı və Şərqi Zəngəzuru yenidən qurur. O cümlədən, öz ərazilərimizdə həm mülki, həmdə hərbi obyektlər inşa edir. Dünya praktikasında artıq aksioma kimi qəbul edilən addımları da atır. Bunlardan biri də Azərbaycanla qonşu ölkələr arasında sərhəd-keçid məntəqəsinin yaradılmasıdır. Bunun üçün dövlətimiz heç kimdən icazə almağı da düşünmür. Amma, səlibçilər buna da dil və əl uzatmağa cəhdlər edirlər. Guya Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməni əsilli vətəndaşlar Ermənistana heç bir yoxlamadan keçmədən, heç bir nəzarət edilmədən var-gəl etməlidirlər, Azərbaycan isə onlara "gözün üstə qaşın var" deməməlidir. Sizcə, belə bir praktikaya hansı Avropa ölkəsində, yaxud Afrika qitəsində rast gəlinib. Sərbəst gediş-gəlişi bizdən tələb edən ölkələrin hansı birində bu hala rast gəlinib, yaxud onların kitabında bu üsul təsbit edilib.

Yuxarıda səlibçilərin, xaçlı yürüşlərinin tarixindən qısa məlumat verdik. Bu heç də təsadüfi deyildi. Xaçlı yürüşlərinin Ermənistan adlı uzantıları bu gün əsrlər öncə baş verənləri təkrarlamağa qalxıblar. Avqustun 8-də "Xaçlılar" dəstəsinin üzvləri Ermənistan hökumətinin binası yaxınlığında etiraz aksiyası təşkil ediblər. Onlar Zəngəzurun Xəzinəvar (Kornidzor) kəndi yazınlığında dayanmış humanitar yardım maşınlarının Qarabağa çatdırılması üçün Paşinyana vaxt veriblər, əks halda güc tətbiq etməklə hədələyiblər. Hökumətdən heç bir cavab almasalar Laçın yoluna hücum edəcəklərini deyiblər. Səhər saatlarında "Xaçlılar" dəstəsinin üzvləri və onların tərəfdarları İrəvanın mərkəzində etiraz aksiyası keçirərək, Laçın dəhlizinin açılması üçün addımların atılmasını tələb edirlər.

Hökumət binası qarşısında etirazçılardan bəziləri Respublika meydanına gedən yolları bağlamaq istəyərkən saxlanılıb. "Səlibçilər" dəstəsinin digər üzvləri yük maşınlarının dayandığı Kornidzor kəndinə çatıblar. "Səlibçilər" dəstəsinin komandiri Sarqis Poqosyan sülhməramlılarla danışıqlara başlamaq, nəticə olmasa yolu güclə açmalı olacaqlarını deyib. Dəstə üzvlərinin hərəkətinə yenə də erməni polisi mane olub. Bəli, Azərbaycan maskası yırtılmış Ermənistanla üz-üzədir. Bu qondarma dövlətin əsl sifəti görünüb, avropalıların niyə haqqın deyil, Ermənistanın yanında durduqları ortaya çıxıb.

# Erməni terroru: tarixin susmayan gerçəklikləri

## Mi-24 helikopterinin vurulmasından 31 il ötür





***Terrorçuluq cinayətkarlığın ən təhlükəli formalarından biridir. Terrorizm siyasi, dini, ideoloji, iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni zorun, gücün, hədənin tətbiq olunması formasıdır. Çox təssüf ki. bu gün tarixi, dini, mədəniyyəti, dili olmayan ermənilər tərəfindən bu törədilir. Terror aktları insan təlafatları ilə nəticələnir və güclü psixoloji gərginliklər yaşanılır. Real həyatda terror aktlarından daha çox günahsız kütlə, dövlət adamları ziyan çəkir. Bu siyasi, iqtisadi və mənəvi ziyanla nəticələnir və hər bir dövlət, hər bir insan bunun qurbanına çevrilə bilər. Azərbaycan da zaman-zaman ermənilər tərəfindən terror aktları törədilmiş terror aktlarının acı nəticələrini yaşayıb.***

Vurğulamaq yerinə düşər ki, təcavüzkar erməni millətçiləri tərəfindən xalqımıza qarşı iki yüz ilə yaxın bir dövrdə yeridilən soyqırımı siyasətinin məqsədi azərbaycanlıları tarixi torpaqlarından qovmaq, xarici havadarlarının köməyi ilə həmin yerlərdə Ermənistan dövləti yaratmaq olub. Tarixdən bəllidir ki, 1883-cü ildə İrəvan şəhərinin 18. 766 nəfər əhalisinin 15. 992 nəfəri, 1866-cı ildə isə 27. 246 nəfərindən 23. 626 nəfəri, yəni 85,2 % azərbaycanlı olmuşdur. Böyük Ermənistan yaratmaq xülyasında olan ermənilərin həqiqi vətəni Rusiya hüdudlarından kənarda, daha doğrusu Kiçik Asiyada yerləşir. Tarixdə heç bir dövlətçiliyi olmayan ermənilər zaman-zaman xalqımıza qarşı terror aktları törədiblər. Azərbaycan xalqı 200 il ərzində erməni millətçi şovinistlərinin davamlı olaraq etnik təmizləmə, ağlasığmaz terror aktlarına və soyqırımı siyasətinə məruz qalmış, günahsız insanlar, qocalar, uşaqlar, hətta, hamilə qadınlar insanlığa sığmayan amansızlıqla, qəddarlıqla qətlə yetirilmişdir. Təəssüf ki, hələ də nüfuzlu beynəlxalq qurumlar və qüdrətli dövlətlər erməni terror təşkilatlarının törətdikləri vandal aktlara ciddi münasibət bildirməmiş, terrorizmə qarşı mübarizədə həmrəylik nümayiş etdirməmişlər.

Dünyanın ən tanınmış terror təşkilatları sırasında Ermənistanın ASALA terror təşkilatının da yer aldığı hamıya bəllidir. ASALA, MAQ, "Erməni İttifaqı", "Erməni Azadlıq Cəbhəsi" terror təşkilatları ilə yanaşı, "Armenakan", "Hnçak", "Daşnaksütun" partiyalarının da proqramının əsasını terrorizm, terror üsulları təşkil edir. XIX əsrin sonları və XX əsrdə bu və digər erməni terror təşkilatları Azərbaycanda və Türkiyədə dəhşətli terror aktları törətmiş, on minlərlə günahsız insanı xüsusi amansızlıqla qətlə yetirmiş və ya ömürlük şikəst qalmalarına səbəb olmuşlar.

1892-ci ildə Tiflisdə ilk qurultayını keçirən "Daşnaksütyun" türklərə qarşı sui-qəsdlərin təşkil olunması barədə qərar çıxarmışdır. Məhz bu qurultaydan sonra "Daşnaksütyun" "türkü hər yerdə, hər bir şəraitdə öldür, sözündən dönənləri, erməni xainlərini öldür, intiqam al!" əmrini vermişdir.

1918-ci il martın 30-31-də Bakı Kommunası və erməni şovinistləri Azərbaycanda kütləvi qırğınlar, qətliamlar törətməklə bəşər tarixində misli görünməmiş soyqırıma imza atmışlar. Bir neçə gün ərzində təkcə Bakıda 12 min insan sırf milli-etnik zəminində qətlə yetirilmiş, kütləvi qətliamlar Azərbaycanın Şamaxı, Quba, Qarabağ və digər bölgələrini də əhatə etmişdir. Yalnız 1918-ci ilin sentyabrında Nuru paşanın başçılıq etdiyi ordunun Bakını xilas etməsindən sonra bu qırğınların qarşısı qismən alınmışdır.

### ERMƏNİ TERRORÇU TƏŞKİLATLARININ TERROR MÜHARİBƏSİ

Tarixi faktlar göstərir ki, məhz ermənilərin fitvası ilə 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli siyasi xadimlərindən Nəsib bəy Yusifbəyli, Fətəli Xan Xoyski, Xəlil bəy Xasməmmədov, Həsən bəy Ağayev vəhşicəsinə qətlə yetirilmişlər. Erməni terrorçuları zaman-zaman İstanbulda, Romada, Berlində, Tiflisdə, Buxarada və digər şəhərlərdə tanınmış türk ictimai-siyasi xadimlərinə qarşı qanlı terror aktları həyata keçirmişlər. "Terrorizm`ə qarşı mübarizə" haqqında Azərbaycan Respublikasının Qanununun 1-ci maddəsinə əsasən terrorizm dedikdə, ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq və ya dövlət hakimiyyəti orqanları tərəfindən terrorçuların maraqlarına cavab verən qərarların qəbul edilməsinə nail olmaq məqsədilə insanların kütləvi şəkildə qırılmasına, onlara bədən xəsarəti yetirməsinə, yaxud səhhətinə başqa cür zərər vurulmasına, habelə başqa ağır nəticələrə səbəb olan əməllərin törədilməsi və ya bu cür əməllərin törədilməsinə yönələn hədə başa düşülür.

Ermənistan dövlətinin və erməni diasporunun maliyyə və təşkilatı yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terrorçu təşkilatlarının Azərbaycana qarşı apardıqları terror müharibəsi 1980-ci illərdən başlayaraq ardıcıl xarakter almışdır. Azərbaycanın Qarabağ bölgəsi və onun ətrafındakı 7 rayonun işğalı zamanı kütləvi vahimə yaratmaq, çoxlu insan təlefatına nail olmaq məqsədi ilə Ermənistanın xüsusi xidmət orqanları hərbi əməliyyatların getdiyi ərazilərdən xeyli uzaqda, dinc azərbaycanlı əhalisinin yaşadığı məntəqələrdə terror aktları təşkil etmiş, nəticədə minlərlə günahsız insan həlak olmuşdur.

Qısa bir tariximiz bizə ermənilərin terrorçu olduğunu bir daha göstərir. 16 sentyabr 1989-cu ildə "Tbilisi-Bakı" marşrutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, 5 nəfər həlak olmuş, 25 nəfər yaralanmışdır. 18 fevral 1990-cıldə Yevlax-Laçın yolunun 105-ci km-də "Şuşa-Bakı" marşrutu ilə hərəkət edən avtobus partladılmış, çoxlu insan tələfatı olmuşdur. 11 iyul 1990-cı ildə "Tərtər-Kəlbəcər" sərnişin avtobusu partladılmış, dinc əhali olan maşın karvanına qarşıterror aksiyası keçirilmiş, nəticədə 14 nəfər qətlə yetirilmiş, 35 nəfər yaralanmışdır. 10 avqust 1990-cı ildə "Tbilisi-Ağdam" marşrutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, 20 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır. Həmin gün "Şəmkir-Gəncə" avtomobil yolunda Xanlar rayonunun Nadel kəndi yaxınlığında "LAZ" markalı 43-80 AQF dövlət nömrə nişanlı avtobus partladılmış, nəticədə 17 nəfər həlak olmuş, 26 nəfər yaralanmışdır. 30 noyabr 1990-cı ildg isə Xankəndi aeroportu yaxınlığında sərnişin avtobusu partladılmış, 2 nəfər həlak olmuş, 11 nəfər yaralanmışdır.

### DÜNYANIN GÖZÜ QARŞISINDA TÖRƏDİLƏN CİNAYƏTLƏR

Bir-birinin ardınca törədilən terror aktlarının davamı olaraq 09 yanvar 1991-ci ildə "Molodyoj Azerbaycana" qəzetinin müxbiri Salatın Əsgərova və 3 hərbi qulluqçunun olduğu avtomobilə qarşı terror aktı nəticəsində 4 nəfər qətlə yetirilmişdir. "Yevlax-Laçın" avtomobil yolunun 106-cı kilometrində 5459 saylıhərbi hissəyə məxsus "UAZ-469" markalı avtomaşın partladılmış, 3 nəfər həlak olmuş, 3 nəfər ağır yaralanmışdır. Bu terror isə 19 iyun 1991-ci ildə baş tutmuşdu. 31 iyul 1991-ci ildə Dağıstan Respublikasının Temirtau stansiyasıyaxınlığında "Moskva-Bakı" sərnişin qatarı partladılmış, nəticədə 16 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır. Beləliklə, Hadrut rayonunun Dolanlar kəndində "QAZ-53" markalı avtomaşın partladılması, Hadrut rayonunun Şadaxt kəndi yaxınlığında "KAVZ" markalı 70-30 AQO dövlət nömrə nişanlı avtobus partladılması, "Ağdam-Xocavənd" avtobusunun atəşə tutulması nəticəsində 5 nəfərin qətlə yetirilməsi, "Yevlax-Laçın" yolunda "VAZ-2106" markalı D 72-07 AQ nömrənişanlı avtomaşın partladılması, Ağdərə rayonunun Sırxavənd kəndi yaxınlığında "UAZ-469" markalı avtomaşın partladılması və nəticədə onlarla insanların həlak olması erməni terrorunun acı nəticələridir. 20 noyabr 1991-ci ildə Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında "Mİ-8" vertolyotunun atəşə tutulmasınəticəsində vertolyot heyəti və sərnişinlər - Azərbaycanın görkəmli dövlət vəhökumət nümayəndələri, Rusiya və Qazaxıstandan olan müşahidəçilər - 19 nəfər həlak olmuşdur. Sadaladıqca sona yetməyən terror aktları erməni simasının göstəriciləridir.

Tarixən Azərbaycan xalqına qarşı soyqırım siyasəti həyata keçirən erməni millətçiləri öz vəhşi simalarını bir daha bütün dünyaya nümayiş etdirərək Xocalını yerləyeksan etdilər. Xocalı soyqırımı erməni terrorizminə, onların işğalçılıq siyasətinə, insanlığa sığmayan əqidə və məsləkinə qarşı dərin nifrət hissi oyadır.

Xocalıda terror əməliyyatının planı əvvəldən hazırlanmışdır. Xocalıda erməni terrorizminin amansızlığını təsdiq edən faktlardan biri də odur ki, terror əməliyyatı zamanı istifadəsi qadağan olun xüsusi təhlükəli kütləvi qırğın silahlarından geniş istifadə edilmişdi.

02 iyun 1993-cü ildə Bakı dəmir yolu vağzalında sərnişin qatarının vaqonunun partladılması nəticəsində dövlətə külli miqdarda maddi ziyan dəymişdir. Partlayışın icraçısı Rusiya vətəndaşı İqor Xatkovski Ermənistan Respublikası Milli Təhlükəsizlik Baş İdarəsi kəşfiyyat şöbəsinin rəisi, polkovnik Caan Ohanesyan tərəfindən məxfi əməkdaşlığa cəlb edilərək, casusluq və terrorçuluq məqsədilə Azərbaycana göndərildiyini, böyük insan tələfatı ilə nəticələnəcək partlayışlar törətmək tapşırığı aldığını etiraf etmişdir. İstintaq zamanı sübuta yetirilmişdir ki, həmin qrup 1992-1994-cü illərdə Rusiya ərazisindən Bakıya gələn sərnişin qatarlarında silsilə partlayışlar törətmişdir. 01 fevral 1994-cü ildə Bakı dəmir yolu vağzalında "Kislovodsk-Bakı" sərnişin qatarında terror aktıtörədilmiş, 3 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır. 18 mart 1994-cü ildə Xankəndi şəhəri yaxınlığında İran Hərbi Hava Qüvvələrinə məxsus "Herkules" tipli təyyarə vurulmuş, 34 diplomat və ailə üzvləri həlak olmuşlar.

19 mart 1994-cü ildə Bakı metropolitenin "20 Yanvar" stansiyasında törədilmiş partlayış nəticəsində 14 nəfər həlak olmuş, 49 nəfər yaralanmışdır. Məhkəmə sübut etmişdir ki, terror aksiyası Ermənistan xüsusi xidmət orqanları tərəfindən hazırlanmış, separatçı "Sadval" ləzgi təşkilatının üzvləri tərəfindən həyata keçirilmişdir. 03 iyul 1994-cü ildə Bakı metropolitenin "28 May" və "Gənclik" stansiyaları arasında elektrik qatarındakı partlayış nəticəsində 13 nəfər həlak olmuş, 42 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır. 1989-1994-cü illərdə erməni terrorçuları Dağlıq Qarabağda nəqliyyatda 29 iri terror aktı təşkil etmiş, iki mülki vertolyotu və 2 təyyarəni vurmuşlar.

*Nəzakət ƏLƏDDİNQIZI*



# Azərbaycançılıq ideologiyası xalqın milli sərvətidir



*Mövcud fakt və reallıq ondan ibarətdir ki, Azəbaycan xalqı dünya xalqları arasında barmaqla sayılan xalqlardandır ki, öz milli dəyərlərini və adət-ənənələrini qoruyub saxlayıb, inkişaf etdirə bilir. Yəni tarixin ağır, məşəqqətli dövrlərində müəyyən fəlakətlərlə üzləşməsinə baxmayaraq xalqımız öz irsinə sahib çıxmağı bacarıb. Keçmişdən bizə miras qalan dəyərlər bu gün yeni və müasir formada inkişaf etdirilməkdədir.*

Təhlil

Millətin potensialının və ölkəni tərəqqiyə, firavanlığa doğru aparmağa qadir siyasi elitanın olması onu göstərir ki, neokonservatizmin milli forması kimi "azərbaycançılıq" milli ideologiyanın əsasıdır və Azərbaycan dövlətinin bütün tarixi boyu da əsası olaraq qalacaqdır. Bu gün siyasi baxışlarından asılı olmayaraq, hamı etiraf edir ki, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycanda əldə edilmiş milli birlik respublikamızın ən qiymətli mənəvi-ideoloji sərvətlərindən biridir. Xalqın nəzərində bütöv, milli şəxsiyyət kimi təcəssüm olunan Ulu Öndər Heydər Əliyev dühası Azərbaycana ikinci rəhbərliyi dövründə vətəndaş sülhü və ümumxalq həmrəyliyinin möhkəmləndirilməsi xəttini davam etdirmiş, bu siyasi xətti özünün konkret addımları ilə kamil elmi-nəzəri konsepsiya səviyyəsinə qaldırmışdır.

### Azərbaycan dövləti dünyanın müxtəlif bölgələrində yaşayan azərbaycanlıların vahid dövlətidir

Azərbaycan dövləti dünyanın müxtəlif bölgələrində yaşayan azərbaycanlıların vahid dövlətidir. Dövlətimiz üzərinə düşən vəzifələrə uyğun olaraq müxtəlif ölkələrdə



yaşayan azərbaycanlıların milli birliyə nail olmaq istiqamətində ardıcıl və sistemli iş aparır. 2001-ci ilin ən yaddaqalan və milli həmrəyliyimizin nümayişinin ən yüksək zirvələrindən biri noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi olmuşdur. Ümummilli lider Heydər Əliyevin 2001-ci il mayın 23-də imzaladığı sərəncama əsasən, keçirilmiş bu qurultay dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin, həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi üçün şərait yaratmışdır. Həmin qurultaydan sonra Azərbaycan diaspor hərəkatı tamamilə yeni mərhələyə qədəm qoymuş, Ümummilli Lider Heydər Əliyev bu sahədə dövlət siyasətinin sistemli həyata keçirilməsini təmin etmək məqsədilə 2002-ci ildə "Xaricdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsinin yaradılması barədə" Fərman imzalamışdır. Komitənin yaradılması xaricdəki Azərbaycan cəmiyyətlərinin, birliklərinin və dərnəklərinin fəaliyyətinin vahid mərkəzdən koordinasiyasına, habelə onların dövlət qayğısı ilə əhatə olunmasına geniş imkanlar vermişdir. Dövlət Komitəsinin yaradılması dünya azərbaycanlılarının konsolidasiyasında, diaspordan lobbiyə doğru inkişafında yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Komitə qısa müddətdə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın azərbaycançılıq ideyası və Azərbaycan dövləti ətrafında birləşməsi istiqamətində xeyli iş görməyə müvəffəq olmuşdur.

### Diaspor quruculuğunda yeni mərhələ

Bugünkü güclü, qüdrətli Azərbaycanı daha böyük qələbələrə aparan söz yox ki, Ulu Öndərin layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyevdir. Yenilməz Sərkərdə, ölkə Prezidenti İlham Əliyev diaspor və lobbi quruculuğuna mühüm məsələlərdən biri kimi yanaşır. Prezident İlham Əliyev müxtəlif ölkələrə səfərləri çərçivəsində soydaşlarımızla keçirdiyi görüşlərdə milli diaspor təşkilatlarının vahid, mütəşəkkil qüvvə kimi təşkilatlanması zərurətini önə çəkmiş, bunun ideoloji-siyasi konturlarını müəyyənləşdirmişdir. Dövlət başçısı müasir dövrdə bu sahəyə xüsusi diqqət ayırmadan xarici siyasətdə ciddi uğur qazanmağın qeyri-mümkünlüyünü çıxışlarında dəfələrlə vurğulamışdır. Prezident İlham Əliyevin 8 fevral 2006-cı il tarixli sərəncamı ilə 2006-cı il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi diaspor quruculuğu işinə yeni nəfəs verməklə ən əlamətdar hadisələrdən biri kimi yadda qalmışdır. Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsində isə məqsəd hesabat dövründə diaspor quruculuğu istiqamətində görülmüş işləri dəyərləndirmək, habelə xaricdə yaşayan soydaşlarımızın üzləşdiyi bəzi problemləri, yaşadıqları ölkələrin siyasətinə təsir imkanlarını öyrənmək, onların tarixi Vətənlə daha geniş əlaqələrinin qurulmasına xidmət edən tədbirlərin hazırlanmasını təmin etməkdən ibarət olmuşdur. 16 mart 2006-cı il tarixdə keçirilmiş qurultayda Azərbaycan diasporunun hazırkı vəziyyəti müzakirə edilmiş, bu sahədə çalışan təşkilatların fəaliyyətlərinin əlaqələndirilməsi işinin təkmilləşdirilməsi, ölkə həqiqətlərinin, xalqımıza qarşı törədilmiş terror və soyqırımı aktları ilə əlaqədar çoxsaylı faktların dünya ictimaiyyətinə çatdırılmasının daha müasir metodlarının hazırlanması, digər xalqların diaspor təşkilatları ilə əlaqələrin gücləndirilməsi məsələləri xüsusilə önə çəkilmişdir.

Yüksək mütəşəkkillik və ruh yüksəkliyi ilə başa çatan qurultayın nəticəsi kimi Azərbaycan diasporunun fəaliyyət konsepsiyasının hazırlanması barədə qərarın qəbul edilməsi, dünya azərbaycanlılarına müraciətin, habelə Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı xüsusi bəyanatın, işğal olunmuş ərazilərdə tarixi abidələrimizin, mədəni irsimizin dağıdılması ilə bağlı beynəlxalq təşkilatlara müraciətlərin və digər sənədlərin qəbulu istər təbliğatı, istərsə də səmərəli əks-hücumun təşkili baxımından böyük əhəmiyyətə malikdir. Milli dövlət ideologiyası olan azərbaycançılığın gücü ondadır ki, o, xalqın milli-mədəni kimliyini həm müdafiə etməyi və həm də qoruyub saxlamağı bacaran dövlətlə insanların fərdi sosial-mədəni meyillərini üzvi şəkildə birləşdirməyə qadirdir... Bu ideologiya Azərbaycanda vahid birlik, vahid sosium formalaşdırır. "Azərbaycançılıq" ideyasının dərk olunması əsasında Azərbaycan xalqının tarixi, mənəvi-əxlaqi, mədəni ənənələri zəminində birlik ideyası durur. Bir sözlə, ictimai həyatımızın bütün sahələrində - milli mədəniyyətimizdə, milli əxlaqımızda, mənəviyyatımızda və siyasətimizdə dövlətçilik ideologiyası kimi təzahür edən milli ideologiya - azərbaycançılıq istiqamətləndirici məfkurə kimi tarixi keçmişimizin məhsulu olan milli-mənəvi dəyərlərin varlığını qoruyub saxlayır.

**İ. ƏLİYEV**

**TƏHLİL**

***Separatçıların başında duran Arayik Harutyunyan deyəsən başını yenə itirib və indi itirdiyi başı ilə kimlərə isə başçılıq etməsi çox gülünc görünür. Onun hansısa telekanala müsahibəsində səsləndirdiyi fikirlər bunu deməyə əsas verir ki, Araik çıxılmaz vəziyyətdə olduğunu başa düşərək, yenə də hansısa tələblə, dilemma ilə çıxış edirsə, deməli, əvvəlcədən mövcud olan psixoloji problemləri artıq özünü yenidən göstərməyə başlayıb.***

# Heç bir nəticə vəd etməyən İLLÜZİYALAR



Hər dəfə gülünc bəyanatlarla çıxış edən Arutyunyanın bu dəfə səsləndirdiyi fikirlər də gülüş doğurmaya bilməzdi. "Beynəlxalq strukturların reaksiyası olub, var və olacaq, amma nəticə yoxdur", deyən Araik nəticənin olmadığı halda, hansı reaksiyadan danışır? Əgər reaksiya olsaydı nəticəsini ən azından onun özü hiss etmiş, görmüş olardı. Görməyibsə, deməli, səsləndirdiyi fikirlər cəfəngiyyatdan başqa bir şey deyil. Yəqin ki, dediklərinin cəfəngiyyat olduğunu gec də olsa anladığı üçün dərindən ah çəkirmiş həmin telekanala müsahibəsi zamanı.

"Görünür, hər yerdə bir problem olduğunu və vəziyyətin gündəngünə pisləşdiyini hiss ediblər, amma nəticə sıfırdır", deyən Arayik Harutyunyanın sızıltısı hiss olunmaqdadır. O, bu sızıltı ilə kimi inandırmaq fikrindədir? Müraciət etdiklərini, yoxsa erməni əhalini? Bələkə hələ də kimləri isə aldatmaq istəyir? "Biz elə bir vəziyyətdəyik ki, soyqırım ərəfəsindəyik. Yəni bunu dialoq adlandırmaq olmaz, ancaq Azərbaycanın bizim üçün qəbuledilməz olan şərtlərini və tələblərini qəbul etməyə bizi sövq edirlər", deyən Araik yenə də məsuliyyətsiz şəkildə ağlına gələni danışmaqdan, yalan ifadələrlə təmsil etdiyi cəmiyyəti qızişdırmaqdan çəkinmir. O, belə sərsəm çıxışlarından sonra nəyə ümid edir və onun belə sızıltısının ardınca Qarabağ iqtisadi rayonunda yaşayan ermənilər hansı qənaətə gəlməlidirlər? Axı ermənilərə qızıldan dağlar vəd edənlərdən biri də onun özü idi. Beynəlxalq təşkilatlara müraciət edib vaxt qoyan da elə Arutyunyan idi. Bəs indi nə oldu ki, birdən-birə sızıldamağa başladı?

Artıq sızıldamağa başlayan qondarma başçı indi nə istəyir həmin o erməni əsillilərdən? Bir halda ki, nəticənin olmadığını, sıfır olduğunu bəyan edirsə, eyni zamanda ərzaq və digər tələbatla bağlı qıtlıqdan danışırsa, çarəsiz durumu etiraf edirsə, daha əhalini nəyə inandıra bilər? Düzdür, hansısa qıtlıq haqqında spekulyasiyalar elə onun özünün uydurduğu zəfəngiyyatlardan biridir. Yaxud da, əgər həqiqətən də qıtlıq müşahidə olunursa, yenə də bu məsələdə onun əli var. Əgər erməni əsillilər buna inanmırlarsa, gedib onun evini, zirzəmilərini yoxlaya bilərlər və bu zaman görərlər ki, qıtlıq dediyi vəziyyəti də özü yaradıb. Xatırlatmaq yerinə düşərdi ki, bu barədə erməni bloger Roman Baqdasaryan da öz fikirlərini və etiraflarını erməni xalqına çatdırıb və qeyd edib ki, əgər Azərbaycanın Qarabağ iqtisadi rayonunda erməni əsillilər aclıqdan, qıtlıqdan əziyyət çəkirlərsə, burada elə məhz Araik Arutyunyanın öz əli var. Erməni bloqer açıq şəkildə bildirir ki, siqaret qıtlığından, ərzaq çatışmamazlığından əziyyət çəkənlər Araikin evinə, zirzəmisinə baxsalar görərlər ki, orada həddindən artıq ehtiyat yığılıb. Deməli, erməni bloqer açıq şəkildə qeyd edir ki, separatçıların başçısı bilərəkdən süni şəkildə qıtlıq yaradır və həm də hər şeyi mənimsəyir.



Ermənilər Azərbaycanın öz şərtləri ilə sülhə israr etməsindən şikayətlənməyə davam edə bilərlər, amma bu, nəticəni dəyişə bilməz. Bəli, biz öz şərtlərimizdə israr edirik və buna haqqımız çatır, baxmayaraq ki, bu, Araik və onun kimi separatçıların xoşuna gəlmir və bundan sonra da kimlərinsə xoşuna gəlməyə bilər. Amma onlar bilməlidirlər ki, sülh sırf Azərbaycanın şərtləri ilə olacaq. Çünki biz qalib gəlmişik, biz qalib tərəfik, biz daha güclüyük və haqlı tərəfik. Məğlub olan, eyni zamanda haqsız olan tərəfin şərtləri qəbul edilə bilməz axı. Tarix boyu belə bir hadisə ilə bəşəriyyət bir dəfə də olsun rastlaşmayıb və bundan sonra da rastlaşa bilməz. 1941-1945-ci il müharibədəsində məğlub olan Almaniyanın hansısa şərtlərinin olduğunu təsəvvür etmək belə mümkün deyil və təbii ki, SSRİ-nin şərtləri qəbul olunmalı idi və belə də oldu. Bütün dünya da bunu tam real olaraq qəbul etdi. İndi də analoji olaraq, Azərbaycanın şərtləri ola bilər və yalnız həmin şərtlər qəbul olunmalıdır. Araik bilməlidir ki, bunun əksini iddia etdiyi zaman beynəlxalq aləmin heç reaksiyasına da ümid etməməlidir, nəinki nəticəyə. Əgər hələ də bunlara ümid edirsə, ilk növbədə öz-özünü aldadır, sonra da Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməniləri.

Öz müqəddəratını təyinetmə, muxtariyyət, özünüidarə deyilən bir şey ola bilməz. Azərbaycanın daxilində ikinci bir erməni dövləti qurmaq absurd, daha doğrusu, axmaq təfəkkürdür, hansıki başda Araikin özü olmaqla, elə separatçıların hamısı bu axmaq təfəkkür sahibi ola bilərlər, amma bu axmaq təfəkkürlə heç nəyə nail ola bilməzlər. Əgər dünyada belə bu cür axmaq təfəkkür sahiblərinin olacağına ümid edirlərsə, yenə də yanılırlar. Makron kimi bir ermənipərəstin ağlına, mövqeyinə güvənirlərsə, yenə də yanlışlığa yol verirlər. Ağılsız fikirlər səsləndirəndə onun reaksiyasını Araik nəzərdə tutursa, bilsin ki, əvvəla, Makron ikinci bir erməni dövlətinin qurulmasına tərəfdar olduğu halda, gedib Fransada həmin dövlətin qurulmasına çalışa, orada ermənilər üçün ərazi də ayıra bilər, təbii ki, fransızlar buna yol versələr. Yox, əgər Araik hesab edirsə ki, Fransa lideri Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin qurulması yolunda nəyə isə nail ola bilər, yenə də axmaqcasına özünü və ətrafını aldadır. Makronun öz helikopterləri, təyyarələri ilə Azərbaycan ərazisinə yüzlərlə Rembo düşürəcəyini, onların da məhz Araikdən ötrü döyüşəcəyini düşünürsə, deməli, başını tamamilə itirib.

Onsuz da dünya ictimaiyyəti separatçıların yalançı qara-qışqırıqlarına məhəl qoyan deyil. Bunu gec də olsa separatçılar başçılarının dilindən də eşitdilər. Nəticə sıfırdır deyən Araik özü öz dili ilə bunu təsdiq etdi. Reaksiya barədə dedikləri isə yalandır, çünki reaksiya olduğu halda nəticə də olmalı idi, cüzi də olsa. Nəticə yoxdursa, deməli, reaksiya da yoxdur. Heç olmayacaq da. Necə ola bilər axı? Beynəlxalq ictimaiyyət Araikin şişman qarnına, pörtmüş, qızarmış sir-sifətində baxanda çox yaxşı görür ki, "aclıq", "blokada" və başqa bu kimi haray-həşir yalandandır. Araik heç də ac görünmür və dondan-dona girməsi hakimiyyətini qoruması naminədir. Bəşəriyyətin isə nə Araikə, nə separatçılara, nə də digər ermənilərə hansısa dövlət qurub vermək kimi bir öhdəliyi, borcu yoxdur. Eləcə də Araikə əbədi hakimiyyət, vəzifə vədi edildiyini xatırlamırıq. Belə olan halda, niyə reaksiya verilməli idi, nəticə hardan olmalı idi? Maraqlıdır, görəsən Araik ağılda onun ətrafında neçə nəfər var və belələri hələ çoxmu axmaq düşüncə ilə hakimiyyət iddiasında olacaqlar?

Araik Arutyunyan hələ də, "Fransa Laçın dəhlizi ilə insanların və malların sərbəst hərəkətinin bərpasını tələb edir", deyə bir təsəlli tapa bilər, baxmayaraq ki, Afrika ilə bağlı vəziyyəti nəzərə aldıqda, Fransanın, şəxsən Makronun özünün təsəlliyə ehtiyacı var. Ruslara bir zaman satıldıqlarında, Osmanlı İmperiyasına xəyanət etdiklərində onlara "Böyük Ermənistan" vəd edənlər necə oldular, vədlərini yerinə yetirdilərmi? Varmı elə bir "böyük" ölkə? Bəs haylar o xəyanətkarlıqları, yaltaqlıqları müqabilində bu zamana qədər aldadıldıqlarını hələ də görə bilmirlər? "Dənizdən dənizə" dedikləri "məmləkət" haradır axı, bunu yerləri xəritədə görən olubmu? Olmayıb, olmayacaq da. Uzaq başı Araiklər müvəqqəti olaraq yalançı, qondarma hakimiyyət, kreslo ilə aldadılaraq alət kimi istifadə oluna bilərlər. Heç kim öz ölkəsindən, torpaqlarından haylara pay vermək fikrində ola bilməz və bunu kimlərsə məcbur da edə bilməz. Uzaq başı, Cənubi Qafqazda öz maraqları naminə erməniləri alət olaraq istifadə edənlər hər dəfə onların rüsvayçı məğlubiyyətlərində, fəlakətlə qarşılaşdıqlarında, səfalət halına düşdüklərində onlara yardım üçün müvəqqəti komitə və ya təşəbbüs qrupu yarada bilərlər. Ən yaxşı halda, onlara iyanələr, yardımlar ola bilər ki, tamamilə məhv olub sıradan çıxmasınlar, tarixin arxivinə düşməsinlər və kimlərinsə növbəti oyunlarında alət olaraq istifadə olunsunlar. Bu həqiqəti nə qədər tez başa düşsələr o qədər də tez anlayarlar ki, gözlədikləri nəticəyə ümid etmələri axmaqlıqdır, çünki illüziyalar heç bir nəticə vəd etmir.

***İnam Hacıyev***

# "Ədalətin müdafiəçisi", rəzil qadın – Gültəkin Hacıbəyli

*Yalan, qəddarlıq, satqınlıq, nifrət, ikiüzlülük – Gültəkin Hacıbəylinin əsl simasıdır*

***O Gültəkin Hacıbəyli ki, dünənə kimi deputat olduğu zamanlarda onun apardığı yalnız bir şeyi - Azərbaycanda mütləq demokratiyanın hökm sürdüyünü, insan hüquqlarının azadlığını, heç bir siyasi məhbusun olmadığını və sovet şinelindən qopmuş bu fenomenal ərazinin – yeni demokratiya beşiyi olmasını sübut etmək üçün təkcə doğma Goranboy ərazisində deyil, onun üçün yad olan Strasburqda vuruşurdu. İndi hər şeyi, hər kəsi əzməyə səy göstərən, ölkəmizdə olan uğurlu nailiyyətləri və qələbələri sosial şəbəkələrdən böhtanlar, iftiralar deməklə, özünün "ədalətin müdafiəçisi" sayan rəzil qadın G.Hacıbəyli satqınçılıq simvolu olan AXCP sədri Əli Kərimlinin şinelinə elə girib ki, hətta yaddaşsızlığı gəlib çıxıb.***



10 il layiq olmadığı «yüksəkliyə» qalxan Gültəkin Hacıbəyli artıq adi insanlara və onların əzablarına diqqət etmək vərdişini itirib. «Bəyli» olmuş Hacıyeva, ziyalı və ləyaqətli insanların üzərində əsl divan təşkil edib. Onun əməllərinin qurbanı tək şəhid ailələləri, müharibə veteranları, hətta əməllərinin qurbanı onun doğma dayısı - Goranboyda yaşayan yaşlı İdris kişi olub ki, o, onun "Emil" MMC müəssisəsini əlindən alıb. Təkcə bu deyil! O, ona məxsus gips karyerini əlindən alıb. Doğma dayını çörəksiz qoymaq! Bunun üçün daş ürəyə malik olmaq lazımdır. Əvvəllər Goranboy rayonunda olarkən rayon camaatının "Gültəkin Hacıbəyli məmurdan tutmuş adi süpürgəçiyə qədər bezdirib" sözlərini eşidəndə təəccüb edirdim. Rayon camaatı bildirirdi ki, o həmişə öz seçki dairəsinin bütün dövlət məmurlarına vergi qoymağa vaxt tapırdı və rayon rəhbərinin yanına gəlir, ondan 5 min tələb edirdi. Ancaq Milli Məclisdə o "zülm edilmiş azərbaycanlıların" sosial hüquqları haqqında danışırdı. Bu danışıqla da o nə az nə çox - 40 hektar torpaq təsərrüfat sahəsinə malik oldu! Şərəf haqqında danışan G.Hacıyeva 2005-ci il seçkilərinə – "Mən Goranboyu layiqincə təmsil edəcəyəm!", - deyən deputat ləyaqəti olmadan, yeni şəxsi tarlaları ilə, Mehdiabad qəsəbəsində, paytaxtın mərkəzində yeni mənzillər əldə etməklə, Hacıyevadan Hacıbəyliyə çevrilən zəngin regionu təmsil etməyə başladı.

### Əvvəl şəxsiyyət, sonra siyasət...

Təəssüf ki, bu xüsusiyyətlərin heç biri G.Hacıbəylidə yoxdur. Belə ki, üçüncü dəfə Goranboydan deputatlığa seçilə bilmədikdə "Yorulmuşam, siyasətdən gedirəm" dedi. Amma Hacıbəyli çoxlarının gözlədiyi kimi, siyasətdən getmədi. O özünü elmə də həsr etmədi - onun elmlə işi yoxdur, çünki elm narsisizm və eqosentrizmi inkar edir, insan özünü bu işə tamamilə həsr etməlidir. O siyasətə qayıtdı, amma əvvəl "bəyli" sonluğunu atmaqla "özünə layiq siyasətə" qayıtdı. Əgər əvvəllər o öz prezidenti ilə fəxr edirdisə, bu gün o qərb liderləri ilə fəxr edir. Əgər əvvəl unikal Azərbaycan modelindən danışırdısa, bu gün fədakarlıqla xidmət etdiyi hakimiyyəti ittiham edir. Əgər əvvəl onun bəyanatları - ölkəmizdə siyasi dustaq yoxdur - sovet ruhunda olurdusa, bu gün «siyasi dustaqların» əzabları onu yumşaldır. Bax, budur Gültəkinin maskası. Bu gün bu min bir maskası olan Gültəkin sosial şəbəkələrdən bu qalib dövləti, hakimiyyəti, xalqı, ordumuzu, şəhidlərimizi hədələməsi bir daha G.Hacıbəylinin nə qədər mənəviyyatsız olduğunu göstərir.

### "Vətən üçün pis olan, mənə faydalıdır" - Gültəkin Hacıbəylinin əsl üzü

Belə bir deyim var: "Əslində, siyasət çirkin deyil, onunla çirkin insanlar məşğul olanda çirkin olur". Bu gün Azərbaycana nifrət edən G.Hacıbəyli kimilərin əsl üzü budur – "Vətən üçün pis olan, mənə faydalıdır". Onlar şəxsi maraqlarını dövlətin və xalqın maraqlarından üstün tutduqları üçün mənəvi nöqteyi-nəzərdən xəyanətkardan və fərariдən başqa bir şey deyil.

Bəzən istəyirsən ki, Samuel Consonun hələ 1775-ci ildə dediyi, sonradan isə Tolstoyun adına çıxılan bu sözləri xatırladasan: "Vətənpərvərlik yaramazların son sığınacaq yerinə çox tez-tez çevrilir".

Bütün arqumentləri qurtaran adamlar sadəcə yalan danışmağa, özlərini şəxsi ambisiyaları barədə yox, yalnız xalq, onun rifahı barədə düşünən millət xilaskarı kimi göstərməyə başlayırlar. Son illərin siyasi burulğanları zamanı yüzlərlə belə adam görmüşük. Bizim dırnaqarası xilaskarlar da onların biridir...Buna əmin olmaq üçün onların çıxışlarından parçalara baxmaq kifayətdir. Məsələn, G.Hacıbəyli yazır: "Biz birinci olmalıyıq", "ən ləyaqətlilər bizik", "ən parlaq şəxsiyyətlər bizik". Əgər burada "parlaq" sözünün yerinə "müqəddəs" sözünü yazsaydı, ambisiya və hikkənin real səviyyəsi özünü daha qabarıq göstərərdi. Özünü ziyalılar zümrəsinə aid edən Hacıbəyli daha sonra yazır: "Biz millətin vicdanıyıq, onun mənəvi etalonuyuq".

Hacıbəylinin çıxışlarında xeyli belə özünəvurğunluq elementləri var. Əgər Hacıbəyliyə elə gəlirsə ki özünə verdiyi bu qeyri-adekvat qiyməti "peşəkarcasına" şişirdə bilib, möhkəm yanılır. Çünki G.Hacıbəyli kimilər reallıqda kimsəyə lazım deyillər, istifadə olunduqdan sonra kənara atılanlardır. Azərbaycan isə müstəqillik, demokratiya yolunu davam etdirərək, daha böyük uğurlar qazanacaq bütün torpaqlarımız işğaldan azad olunacaq və Xankəndidə, Şuşada, Laçında, Qubadlıda, Ağdamda, Füzulidə, Zəngilanda, Hadrudda... dalğalanan bayrağımız dalğalanacaq! O bayrağa baxan xalq üçün radikal müxalifət deyilən bir "varlıq" isə çoxdan mövcud deyil! Çünki əsl həqiqət o bayraqda və onu oraya sancan vətənpərvərlərdədir!

**Rəfiqə HÜSEYNOVA**

## Laçında daha 100-dək ailənin məşğulluğuna dəstək işlərinə başlanılıb




Böyük Qayıdış proqramı üzrə Laçın şəhərinə köçürülən sakinlərin məşğulluq imkanlarının müəyyənləşdirilərək müvafiq dəstək göstərilməsi işləri davam edir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin nümayəndələri Laçına köçürülən daha 100-dək ailə ilə görüşüblər. Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən SİA-ya verilən məlumata görə, həmin ailələrin üzvlərinin məşğulluq imkanlarının müəyyənləşdirilməsi sahəsində ilkin söhbətlər aparılıb.

Aktiv məşğulluq proqramları (özünüməşğulluq proqramı, peşə hazırlığı kursları, işədüzəltmə tədbirləri və s.) barədə onlara məlumatlar verilərək həmin proqramlar çərçivəsində onların məşğulluğuna dəstək işlərinə başlanıb.

Ümumilikdə Agentliyin nümayəndələri Laçına köçürülmüş ailələrdən artıq 150-dək ailə ilə görüşərək məşğulluq imkanlarının qiymətləndirməsini aparıb və nəticəsinə uyğun məşğulluq tədbirləri həyata keçirilir.



## Reallıq Qubad İbadoğlunun kim olduğunu çoxdan üzə çıxarıb

**AFƏT**

Azərbaycanın sözdə müxalifət dairələrində kimlərinsə həbsləri üzərində xal toplamağa cəhd edən, cərəyan edən olaylara siyasi don geyindirmək istəyənlərə dəfələrlə rast gəlinib. Bu günlərdə eyni situasiya "ADR"-in sədri Qubad İbadoğlunun həbsi ətrafında yaşanmaqdadır. Təbii ki, bu da ilk növbədə, Qərbin bəlli adamlarının sifarişləri və ssenariləri ətrafında baş verən siyasiləşdirilmiş teatr tamaşasıdır.

Söz yox ki, bu ssenari nə qədər cılız görünsə də, guya ölkədə narazı kütlənin artırılmasına hesablanmış oyun olduğunu nəzərə alsaq, əminliklə deyə bilərik ki, Q.İbadoğlu məsələsi üzərindən özünə divident qazanmaq istəyənlərin bu oyunbazlıqları sıfırla nəticələnəcək. Digər tərəfdən isə fakt budur ki, istintaq öz sözünü deməmiş suyu bulandırmaq istəyənlərin məqsədləri də, məhz qarmaqarışıqlıq yaratmaqdan ibarətdir.

Sual edilə bilər ki, bəs İbadoğlu həbs olunana qədər hay-haray salanlar harada idilər? "Milli Şura"nın yarıtmaz sədri Cəmil Həsənli, AXCP sədri Əli Kərimli, Tofiq Yaqublu, Qərbdəki söyüş müxalifəti niyə daha əvvəllər Q.İbadoğlunun "siyasi orientasiyasına" dəstək göstərmirdilər? İndi nə baş verdi ki, Q.İbadoğlu bunlar üçün bir xüsusi fərdə çevrildi?

### Azərbaycanı düşmən maraqlarına satmaq üçün sıraya düzülüblər

Başqa tərəfdən, bu gün dövlətimizin çox böyük soyuq savaşın içində olduğu bir vaxtda, hər fürsətdə Azərbaycanı sanksiyalar paketi ilə üz-üzə qoymaq istəyən düşmənlər və onların havadarlarının mövcudluğunu hər kəs yaxşı bilir. Bunlar da bir tərəfdən yağışdan sonra çıxan zəhərli göbələklər kimi Azərbaycanı düşmən maraqlarına satmaq üçün sıraya düzülüblər. Qubad İbadoğlu isə birdən-birə dönüb-olub "mələk"...

Reallığa qalanda bundan da təəccüb etməyə dəyməz. Düşmən dəyirmanına su tökmək beləlerinin köhnə şakəridir! Beləliklə, görünən həm də budur ki, dörd aylıq həbs qətimkan tədbiri ətrafında süni ajiotajın yaradılması sanki ölkədə müəyyən qrup şəxslərin çoxdan gözlədikləri, arzuladıqları proses təəssüratını yaradır. Bu, eyni zamanda, həmin qüvvələrin bəlli Qərb dairələri tərəfindən verilmiş tapşırıqların bir hissəsidir - İstintaqın gedişatına təzyiq cəhdləri və bu ətrafda süni ajiotajların yaradılması.

### Belələri 44 günlük müharibədən sonra Azərbaycanın maraqlarını hər an satmağa hazır olanlardır!

Lakin Qubad İbadoğlunun həbsi ilə bağlı "canfəşanlıq" edənlərin bu görüntüsü süni, saxta səhnəcikdən başqa bir şey deyil. Gah müraciət məktubu hazırlayıb onu dünyaya car çəkənlər, gah da sosial şəbəkələrdə ağıllarına gələnləri yazanlar - onların hər biri çayxanalarda "papaqlarını" günə verənlər, reket jurnalistlər və başqalarının hesabına həyat sürüb tüfeylilik edənlərdir. Və nəhayət - 44 günlük müharibədən sonra Azərbaycanın maraqlarını hər an satmağa hazır olanlardırlar!

Yeri gəlmişkən, son vaxtlar yenidən ortalığa düşən Eldəniz Quliyevin də oyunbazlığı diqqətdən yayınmır. Bu siyasi mənşəyi hələ də bəlli olmayan fərdin ömrü boyu su bulandırmaqla məşğul olduğu ilə bağlı isə geniş izahat verməyə ehtiyac yoxdur. Gah "Ziyalılar forumu", gah "İctimai Palata", gah "Milli Şura" və s. ilə varlığını kimlərəsə nümayiş etdirmək üçün dəridən-qabıqdan çıxan Eldəniz Quliyev, indi də Qubad İbadoğlunun həbs qətimkan qərarı üzərində "Qu quşu" baletini oynamaq qərarına gəlib.

E.Quliyevin ittihamlarının konkret bir mənası var. O, bir vaxtlar Əli Kərimlinin tapşıqlarını yerinə yetirməklə, digər müxalifət partiyalarını gözdən saldığı kimi bu gün də, məhz Qubad İbadoğlu məsələsi üzərindən hamisinin verdiyi tapşırığa uyğun şəkildə fəallıq göstərərək, qeyd edilən "siyasi proseslərin" mərkəzindən kənarlaşmamağa çalışır. Lakin Eldəniz Quliyev bir vaxt təmsil olunduğu "Milli Şura"da belə qəbul edilmədiyi kimi, bu hadisələr fonunda da nə qədər cılız, nə qədər gülünc göründüyünün fərqində olsa, bəlkə özü-özünü ömrünün bu çağında növbəti rüsvayçılıqları yaşamaqdan xilas etmiş olur.

Tofiq Yaqublu da ondan geri qalmır. Bu tip ünsürlər isə ortada qalan insanlardır. Onlar anlamalıdır ki, hər zaman istifadə edib atılırlar. Düzü, bir məqsədi, bir amalı olmayan və konkret mövqe nümayiş etdirməyən və tez-tez mövqeyini dəyişən insanlardan heç vaxt əqidə birliyi gözləməyə də ehtiyac yoxdur.

Lakin Azərbaycan xalqı bu cür cılız, uğursuz, mikroskopik "siyasət" adamlarının oyunbazlığını əsla həzm edən də deyil. Çünki heç xalq imkan verməz ki, yad ünsürlər, xarici dairələr bu tipli satqınlar toplumu vasitəsilə Azərbaycana dil uzatsın, ona qarşı bu kimi kampaniyalardan istifadə edərək ölkənin beynəlxalq nüfuzunu zədələyəcək proseslərdən öz xeyirlərinə yararlansın. Xalq həqiqətin yanındadır və həqiqət, reallıq isə Qubad İbadoğlunun kim olduğunu çoxdan üzə çıxarıb!

# Haradasan, Azərbaycan kinosu?!



***2020-ci ilin 44 günlük Vətən müharibəsi bitər-bitməz gözümüz yolda, qulağımız səsdə qaldı ki, bu gün-sabah sanballı bir film çəkilər, izləyərik. Çünki böyük, həm də bütün dünyaya səs salan hadisə baş vermişdi. Azərbaycan ordusu 30 il işğal altında qalan torpaqlarımızı erməni işğalından azad etmişdi. 44 günün hər biri bir dastan mövzusu olmuşdu. Bütün dünya əsgər və zabitlərimizin şücaətindən danışırdı, dövlətimizin, ordumuzun gücünü seyr edirdi. Onların qəhrəmanlığı, igidliyi qarış-qarış yenidən fəth etdikləri Qarabağın azadlıq nəğməsinə çevrilmiş, lakin igidlərin əksəriyyəti bu azadlığın dadını dadmadan, o nəğməni dinləmədən şəhid olmuşdu. Minlərlə igidimiz canını qurban verdiyi Vətəninin bütövlüyü uğrunda sağlamlığını itirib qazi olmuşdu ki, həmin qazilərin hər biri ordumuzun keçdiyi döyüş yolunun canlı şahididir.***





Müharibə iştirakçılarının hər dəfə Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Şuşanın düşməndən azad edilməsi ilə bağlı söhbətlərini dinlədikcə xəyalında bir film canlanır. Düşünürsən ki, bu filmi televiziya ekranlarından izləmək necə də gözəl olardı. Lakin ötən 3 il ərzində şəhid-qazilərimizin igidliyini, ordumuzun gücünü, dövlətimizin iradə və əzmini ortaya qoyan sanballı bir film izləyə bildikmi? Təəssüf ki, hələ izləyə bilməmişik. Bu səbəbdən də səsləyirik: haradasan, Azərbaycan kinosu? Haradasan, axı tamaşaçı səndən filmlər gözləyir. Axı bu böyük tarixin yaşadılmasında geçikirsən. Axı müharibə bitəndən sonra canlı şahidlərin xatirələri fonunda gözəl filmlər çəkmək olardı, nəinki illər sonra. Elə bu səbəblərdən də Azərbaycan kinosundan danışaq bu gün. Onun dünən və bu gününə nəzər salaq, səsləyək, bəlkə kinomuz bu çağırışdan oyanar, bizə həsrətlə gözlədiyimiz filmləri təqdim edə bilər...

### Azərbaycan kinosundan söhbət açmaq istəyirəm...

O kinodan ki, həqiqətən də vaxtilə öz sözünü deyə, tamaşaçı rəğbətini qazana bilmişdi. İnsanlara gözəl duyğular bəxş etməklə, əxlaqi, milli-mənəvi dəyərlərimizi qorumaqla, xalqımıza məxsus qəhrəmanlıq səhifələrini özündə əks etdirməklə, ailə-məişət mövzularına nümunəvi şəkildə toxunmaqla Azərbaycan kinosu elə filmlər istehsal etmişdi ki, baxmaqla doymaq olmurdu. Elə indinin özündə də həmin filmlərin hər birinə sevə-sevə tamaşa edirik. Hələ bəzən özümüzə belə sual da veririk ki, bu filmlərdən nə üçün doymaq olmur? Hər dəfə baxanda sanki ilk dəfədir, baxırmışsan kimi gəlir adama.

Bizim "Dədə Qorqud" adlı filmimiz var. Bu qədim xalqın qəhrəmanlıq səhifələri, milli-mənəvi keyfiyyətləri, adət-ənənələri ilə dolu bir filmdir. 1975-ci ildə "Kitabi Dədə Qorqud" dastanının motivləri, yazıçı Anarın eyniadlı povesti əsasında çəkilmişdir. Aradan 50 ilə yaxın dövr keçsə də, bu film öz dəyərini əsla itirmir. Baxdıqca baxılır.

Bizim "Babək" adlı filmimiz var. 1979-cu ildə çəkilən filmdə xalqımızın qəhrəman oğlu, görkəmli sərkərdə və siyasi xadim Babəkin azadlıq hərəkatından bəhs olunur. Aradan 45 ildən artıq zaman keçməsinə baxmayaraq bu filmi hər dəfə böyük şövq və qürurla işləyirik.

Bizim "Yeddi oğul istərəm" adlı filmimiz var. 1970-ci ildə xalq şairi Səməd Vurğunun "Komsomol poeması"nın motivləri əsasında çəkilmiş film Azərbaycanda sovet hakimiyyətinin qurulmasının 50 illiyinə ithaf olunsa da, həmin 50 ildə sovet imperiyasının təsiri altında yaşasaq da, lakin film film olaraq çox sanballı və yaddaqalandır. Odur ki, baxmayaraq ki, indi müstəqil ölkədə yaşayırıq, lakin o film bizim üçün yenə eyni dəyərdə qalmaqdadır.

Bizim "Axırıncı aşırım" kimi filmimiz var. 1971-ci ildə ekranlaşdırılmış kino əsərindəki dramatik hadisələr Azərbaycanın dağ kəndlərinin birində sovet hakimiyyəti qurulduğu ilk illərdə baş verir. Bu film də yaşadığımız sovet hakimiyyəti illərini əsas mövzu etsə də, lakin o tarix bizim yaşadığımız tarixdir. Və film o qədər heyrətamiz şəkildə ekranlaşdırılıb ki, bu gün də hər birimiz o filmdən sitat gətiririk. Hər birimiz o filmi illər öncəki maraqla, həvəslə, sevgi ilə izləyirik. Hansı ki, aradan yarım əsrdən artıq zaman keçib.

"Bəxtiyar, "Arşın mal alan", "O olmasın, bu olsun", "Qayınana", "Əhməd haradadır", "Ulduz", "Yenilməz batalyon", "Bizim Cəbiş müəllim" və adlarını çəkmədiyimiz onlarla filmlər var ki, aradan 50 ildən artıq vaxt keçməsinə baxmayaraq bu gün də fəxr etdiyimiz Azərbaycan kino sənətinin nümunələridir. Bəs belə isə bu gün haradadır Azərbaycan kinosu? Nə üçün bu siyahını davam etdirə bilmirik. Yəni belə sanballı filmlərlə davam etdirə bilmirik...

### 1898-dən 2015-dək

Diqqət etsəniz, görə bilərsiniz ki, Azərbaycan kinosu vikipediyasında 1898-ci ildən başlayan kino sənətimizin ayrı-ayrı illərdə inkişaf xətti göstərilib. Yəni illər üzrə çəkilən filmlərin siyahısı, aldığı mükafatlar yerləşdirib. Lakin bu siyahı 2015-ci ildə bitir. Yəni həmin ildən bu yana çəkilən filmlər ya yoxdur, ya da hansısa məsuliyyətsizlik ucbatından burada yer almır. Lakin bugünkü mövzumuz İkinci Vətən müharibəsindən bəhs edən filmlər olduğu üçün deyərdim ki, həmin siyahi tamamilə düzgün tərtib olunub. Çünki hələlik izləyəcəyimiz, "bəh-bəh" deyəcəyimiz elə bir film yoxdur ortalıqda.

Ardı Səh. 12

# Haradasan, Azərbaycan kinosu?!



**Əvvəli-Səh-11**



Hansı ki, bu gün Azərbaycan televiziya məkanında yağışdan sonra çoxalan göbələk qədər teleseriallar görmək mümkündür. Hansı kanala baxırsansa, orada bir seri-alla qarşılaşırsan. Bunların arasında isə təsadüf nəticəsində yaxşı biri ilə qarşılaşmaq mümkündür.

Azərbaycan kino məkanında komediya filmləri daha çox çəkilir. Və qeyd etməliyik ki, həm də çox maraqlı, professional səviyyədə çəkilir. Komediyanın həyatın acı hadisələrini gülüşlə ifadə etməsini, bunun da tamaşaçıya təsir gücünü nəzərə alsaq, əlbəttə komediya filmlərimizə söz yoxdur. Lakin həddindən artıq gülmürükmü? Bəlkə bir qədər də təsirlənməyin, duyğulanmağın, tarixin yaddaşına atılmağın, qədirbilənliyin vaxtıdır...

Komediyadan fərqli olaraq bədii, sənədli, televiziya filmləri haqqında danışmaq bir qədər çətindir. Çünki tamaşaçı hələ də gözləyir. İkinci Vətən müharibəsindən, şəhidlərimizdən, müharibə iştirakçılarından, azad torpaqlarımızdan, bu torpaqların böyük hünər və rəşadətlə geri alınmasından, erməni adlı düşmənin rəzilliyindən, Qarabağın başına gətirdiyi oyunlardan, darmadağın yurdlardan, daşınıb aparılmış sərvətlərdən və Böyük Zəfərdən bəhs edən filmlər gözləyirik.

### Bir film izləmək istərdik...

Bir filmə baxmaq istərdik... Sovet dövründə azərbaycanlı Mehdi Hüseynzadənin İkinci Dünya müharibəsində qəhrəmanlığını əks etdirən "Uzaq sahillərdə" filminə bənzəsin. Tamaşa edəndən günlər sonra təsirindən çıxa bilmədiyimiz "Uzaq sahillərdə"yə. Mehdinin zəkası, savadı, bacarığı, qabiliyyətini, Vətən sevgisini əks etdirən film kimi İkinci Qarabağ müharibəsinin qəhrəmanları haqqında filmlərə baxmaq istərdik. Niyə də baxmayaq ki? Niyə biz "Uzaq sahillərdə"n Qarabağımıza gələ bilməyək? Axı uzaq sahilləri bizə zorla Vətən etmişdilər. Biz öz sahillərimizdən uzaqlara Vətənimizi qorumağa getsək də, ümumi "Vətənimiz" üçün idi bütün bunlar. 70 illik "Vətənimiz". Qəlbimizdə öz Vətənimiz, dilimizdə o "Vətənimiz". O "Vətən" uğrunda gedən döyüşlər haqqında bizim neçə-neçə bədii filmlərimiz var. Hamısı da ayrı-ayrılıqda təsiretmə gücünə malik. Yəni o filmlərin ssenarisini yazanlar, rejissorluğunu edənlər bizlər deyildik?..

Bir bədii film izləmək istərdik. Generalımız Polad Həşimovun vətənpərvərlik rəmzi olmasından, hər biri bir mövzu olan 2907 şəhidimizdən, 7 itkinimizdən, onların Mehdi Hüseynzadə kimi şücaətindən, təhsilindən, vətənpərvərliyindən, cəsarətindən, yarımçıq ömründən bəhs edən film. Birinci Qarabağ müharibəsində şəhid olmuş ataların İkinci Qarabağ müharibəsində şəhid övladlarından, nəvələrindən, yaxın qohumlarından bəhs edən bir film. Tarixi tarixə bağlayan, faktlar toplusu olan bir film.

Bir film izləmək istərdik. Xüsusi təyinatlılarımızın Şuşaya sinələri, əlləri, dizləri ilə açdıqları yoldan, bu dağların sinəsinə pərçim şəhərin asad edilməsindən, o cəngavərlərin hünərindən, silahla yox, əlbəyaxa döyüşündən bəhs edən film.

Hansısa bir yazıçının cəsarət edib yaza biləcəyi, hansısa bir rejissorun ürək edib çəkə biləcəyi müzəffər sərkərdə, Ali Baş Komandandan bəhs edən bir filmə baxmaq istərdik. O filmə ki, torpaqlarımızın qayıtmasını reallaşdıran şəxsiyyətdən, ata nəsihətini həyata keçirən övladdan, yurd həsrətli insanların bağlı qapılarını açan rəhbərdən bəhs etsin.

Haradasan, Azərbaycan kinosu? Biz səni gəzləyirik!

***Mətanət Məmmədova***







## "Azadlıq" qəzetinə...

**Mətanət Məmmədova**

***Həqiqətən təəccüblü bir şey yoxdur, doğrudur, satqınlıq elə bir ucuz keyfiyyətdir ki, milli-mənəvi hissləri zaman-zaman gəmirib puç edir, bir də baxırsan, yerdə heç nə qalmayıb. Elə bu zaman BABƏK kim olursa-olsun nə qədri bilinir, nə də qiyməti: istər bir qəhrəman olsun, istər o qəhrəmanı səhnədə canlandırıb illərdən bəri yaşadan aktyor olsun, istər də 30 il əvvəl AXCP-nin hakimiyyət naminə xalqın başını aldadıb əlindən alaraq qonşuya satdığı torpaqları qaytaran əsl BABƏK olsun... Fərq etməz, bu BABƏKlərin hər biri müxalifətin satışa çıxardığı bir xalqın övladlarıdır.***

Qaldı səngərlərin, döyüşlərin, mübarizələrin, zindanların Babəkinə, bəli, səngərlərin Babəkidir, qazidir. Döyüşlərin Babəkidir, çünki müharibədə iştirak edib. Mübarizələrin Babəkidir, çünki mübarizə aparıb. Lakin maraqlı bir nüans var ortada. Bu Babək necə olub ki, AXCP-nin toruna düşüb? Yaxşı, özü bu barədə fikirləşməyib, heç ona sual verən də olmayıb ki, sən nə üçün səngərdə olmusan, nə üçün döyüşmüsən, nə üçün mübarizə aparmısan? Bu sualları ya özü-özünə, ya da bir başqası versəydi, cavabı bilirsiniz də nə idi?.. Bu idi ki, vaxtilə AXCP-Müsavat cütlüyünün əl-ələ verib satdığı torpaqları düşməndən almaq üçün səngərdə olub, bu torpaqlar üçün döyüşüb, mübarizə aparıb. Bəs necə olub ki, bunları Babək Həsənov hər kəsdən yaxşı bildiyi təqdirdə AXCP tərəfdə olub, hətta vəzifə ilə onun gözü də boyanıb?

Qaldı zindanların Babəkinə, bunu da AXCP daha yaxşı bilir ki, özünə sərf edəcək "maddələrlə" nəyə nə ad qoyur. Birincisi, Azərbaycanın hüquq-mühafizə orqanları əsassız yerə adam həbs etmir. İkincisi, ölkəmizdə şəhid-qazi ailələrinə verilən dəyər, göstərilən qayğı göz önündə olduğu üçün düşünmək olar ki, AXCP bu dəfə quşun gözünü hədəfləyib. Amma...

Unutmamış onu da vurğulayaq ki, bu, daha maraqlıdır, Babək Həsənovun kirayə qaldığı evin sahibini fərarilikdə ittiham edənlərin özlərinin adı nədir? 90-cı illərdən üzübəri 30 il bu xalq onların "bəxş" etdiklərini yaşayırsa, bu ittihamçılar qrandlarla cümlə qurub danışırlarsa, SOROS-un və bunun kimi neçə-neçə təşkilatların sadiq xidmətçiləridirsə, azad Qarabağa baxmaq istərkən gözləri qamaşırsa, bunların adı nədir? 30 il soydaşlarımıza köçkün həyatı verən, yurd həsrətlisi edən, qapılarını bağlı qoyan, balalarını gözləri önündə süngərə keçirən erməniyə bir vaxt satdıqları Laçından bu gün yol açmağı tələb edən, saqqallı bandit dəstələrinin bir nümayəndəsi olan Vaqif Xaçaturyana azadlıq istəyən, erməni soyqırımını dəstəkləyənlərin adı nədir? Maraqlıdır, bunu hər kəsin bilməyə haqqı var.

Bütün xalq düşünürdü ki, Qarabağ Zəfərindən sonra bu AXCP utandığından ta bir də ortada görünməyəcək. Lakin belə olmadı axı. Qarabağda müharibə gedə-gedə bunlar yenə beynəlxalq qrandlarla "utanmasan oynamağa nə var ki..." tamaşasını səhnələşdirdilər. Döyüş meydanında bunların səhvi ucbatından minlərlə balamız şəhid, qazi olduğu halda, bunlar başladılar yeni səhvlərlə addımlamağa. Hansı ki, xalq müxalifətin iqtidar ətrafında birləşməyini gözləyirdi. Hamı birləşdi, bir olduq, Qarabağ üçün dəmir yumruğa çevrildik, bircə bunlar kənarda qaldılar. Nə üçün?

Dünənki Babək məsələsinə gəlincə, sizə çox yer edib, aydındır. Nə üçün qəbul edə bilmirsiniz ki, bəli, torpağını xilas edən, ərazi bütövlüyünü təmin edən şəxs məhz Babəkdir. Həm də ondan da böyük qəhrəmandır. Çünki o Babəkdən fərqli olaraq eyni zamanda həm müharibə meydanının müzəffər sərkərdəsi, həm də dünyanın çoxsaylı media mənsublarının suallarını böyük siyasi səriştə ilə, tarixi faktlarla cavablandıran dövlət başçısı idi.

Bu Babək məsələsi həqiqətən AXCP-yə yaman yer edib. AXCP üzvü Məmməd İbrahim də təsirlənərək digər sənətkarlarımızla bağlı yazır: adam nə orden aldı, nə də sındı. Kişi kimi yaşadı, kişi kimi də öldü. İbrahim "bəy" düşünə bilər ki, dövlət tərəfindən verilən dəyər adamı "sındırır". Düşüncəsiz yanaşmadır. Bu, ən azından xalqın mədəni irsinə çoxsaylı töhfə vermiş Rasim Balayev kimi böyük sənətkara hörmətsizlikdir. Bir də İbrahim "bəy" çox hissə qapılıb, düşünə bilməyib ki, ətrafında dövlət tərəfindən onlarla töhfə alanlar var. Yəqin onlar da İbrahim "bəyə" görə sınmışlar və kişi kimi yaşamayanlardır?..

# DİQQƏT: Günəş yanıqları sağlamlıq üçün təhlükə yarada bilər

HƏKİM MƏSLƏHƏTİ



*Yay aylarında günəş altında qaldığımız zaman ən çox rast gəlinən sağlamlıq problemlərindən biri də günəş yanığıdır. Ümumiyyətlə, açıq dərili insanlara daha çox təsir edən günəşin yaratdığı yanıqlara düzgün müdaxilə və müalicə böyük əhəmiyyət kəsb edir. Bəzən tətbiq etdiyimiz bir çox üsullar günəş yanıqlarını daha da pisləşdirir. Dərimizə sürtəcəyimiz qatıq kimi süd məhsullarında olan bakteriyaların infeksiyaya səbəb ola biləcəyini söyləyən Dermatologiya mütəxəssisi Ceyda Çaytemel günəş yanıqlarında dəri yaxşılaşmadan bayıra çıxmamağın vacib olduğunu söyləyir: vücudunuzdakı maye itkisini əvəz etmək üçün çoxlu maye içməli və dərinizi tez-tez qıcıqlandırmayacaq bir nəmləndirici ilə nəmləndirməlisiniz. Soyuq kompreslər ağrı və qızartıları aradan qaldırmaq üçün faydalıdır.*

### Həm UVA, həm də UVB şüalarına məruz qalırıq

Dərinin ultrabənövşəyi (UV) işığına həddindən artıq məruz qalması günəş yanığı kimi müəyyən edilir. Günəş səbəbiylə həm UVA, həm də UVB şüalarına məruz qalırıq. UVB radiasiya UVA ilə müqayisədə eritema və ya qızartıya səbəb olan daha güclü təsirə malikdir. Həddindən artıq və qəfil məruz qalma nəticəsində dəri özünü qorumaq üçün qalınlaşır və melanin adlı rəng piqmentini daha çox istehsal etməyə başlayır. Nəticədə günəş yanığı meydana gəlir.







Zərərli günəş şüalarının dərinin özünümüdafiə qabiliyyətinə zərbə vurmaqla yanaşı, dəri hüceyrələrində birbaşa DNT zədələnməsinə səbəb ola biləcəyini vurğulayan Ceyda Çaytemel, "Günəş işığına tez-tez məruz qaldıqda DNT zədəsi qalıcı ola bilər və bu şəkil dəri xərçəngi üçün ciddi risk yaradır. 10 ildə beş dəfə günəş yanığı və ya hər 10 ildən bir günəş yanığı ölümcül xərçəng növü olan melanoma riskini üç dəfə artıra bilər",- deyir.



Həkim xəbərdarlıq edir: günəş yanığı ultrabənövşəyi şüalara məruz qaldıqdan sonra 4 saat ərzində dəridə qızartı ilə özünü büruzə verir. Bundan əlavə, dəridə həssaslıq, ağrı, istilik, şişlik və qabarcıq əmələ gəlir, soyulma başlayır. Ağır reaksiyalarda qızdırma, titrəmə və halsızlıq kimi sistemik simptomlar inkişaf edə bilər və termik yanıqlara bənzər müalicə üçün xəstəxanaya yerləşməni tələb edə bilər.

### Ağır vəziyyətdə müalicə uzun vaxt alır

Günəş yanığının müalicəsində orta və ağır şəraitdə iltihabı azaltmaq üçün problemli nahiyəyə qısa müddətə aşağı güclü kortizonlu kremlər tətbiq oluna bilər. Bəzi ağrıkəsicilər də ağrıları idarə etməyə kömək edir.

Ceyda Çaytemel geniş sahələri əhatə edən şiddətli günəş yanıqlarının maye-elektrolit balanssızlığına, ürək və böyrək problemlərinə səbəb ola biləcəyi üçün bu cür xəstələrin xəstəxanaya yerləşdirilməsinin və xəstəxana rejimində müalicə almasının vacibliyini vurğulayır. Qeyd edir ki, bundan əlavə, yaralarda iltihab və axıntı varsa, ikincili infeksiyalar baxımından həkim müayinəsi son dərəcə əhəmiyyətlidir. Müalicə ilə günəş yanıqları orta hesabla 3-5 gün ərzində sağalır və təxminən bir həftəyə qabıqlanma başlayır. Ancaq ağır hallarda səpgilər bəzən uzun müddət davam edə bilir.

### Günəş yanıqlarında 10 vacib qayda

Dermatologiya mütəxəssisi Ceyda Çaytemel günəş yanığının sürətlə sağalması üçün nəzərə alınması lazım olan qaydaları belə sıralayır:

**1.** Günəş yanığı baş verdikdə sağalmadan günəşə çıxmayın.

**2.** Bədəninizdəki maye itkisini əvəz etmək üçün bol su için.

**3.** Yağlı krem və ya məlhəm sürtməyin, çünki dəridə istiliyi saxlayır, ağrıları daha da artırır.

**4.** Dərinizi qıcıqlandırmayacaq bir nəmləndirici ilə tez-tez nəmləndirin.

**5.** Ağrı və qızartıları aradan qaldırmaq üçün soyuq kompres (soyuq su ilə nəmlənmiş dəsmal) qoya bilərsiniz.

**6.** İlıq duş qəbul etmək dərinizi rahatlaşdıra bilər.

**7.** Günəş yanıqları üçün qatıq tez-tez istifadə edilsə də, soyuq kompreslərdən daha yaxşı təsir göstərmir. Bundan əlavə, süd məhsullarında olan bakteriyalar infeksiyaya səbəb ola biləcəyi üçün tövsiyə edilmir. Qatığın tərkibində olan maddələr qıcıqlanmaya səbəb ola bilər.

**8.** Bəzi ağrıkəsici kremlər və lokal anestezik kremlər dəri reaksiyalarına səbəb olduğundan həkiminizlə məsləhətləşmədən istifadə etməyin.

**9.** Dar paltar geyinməyin, çünki dərinin nəfəs almasına və özünü sağaltmasına mane olur.

**10.** Dəridə yaranan qabarcıqları qoparmağa çalışmayın, qalan dəri parçası təbii yara sarğı rolunu oynayır. Beləliklə, yaralarınızın daha tez sağalmasına imkan verir və onlara infeksiya keçməsinin qarşısını alır. Lazım gələrsə, onu cuna ilə örtə bilərsiniz. Hər hansı bir blister özözünə partlayırsa, topikal antibiotik məlhəmi tətbiq edə bilərsiniz.

*Tərcümə-Mətanət Məmmədova*

# "Yaxşı olar ki, Əli Kərimli bunları da "Vaşinqton Post"da desin"

***"Bu gün başda ABŞ olmaqla, Qərb demokratiya, insan hüquqları və azadlıqları deyil, antidemokratiya ilə insanları təsir altına salır. Onlar həmin ölkələrin imicinə ziyan vurmaqla məşğuldurlar". Bu sözləri SİA-ya açıqlamasında deputat Tahir Rzayev deyib.Onun sözlərinə görə, "Vaşinqton Post" bu gün Azərbaycanda gedən prosesləri ədalət və haqq yolu ilə işıqlandırsa idi, möhtəşəm işlərə nəzər salardı: "Digər tərəfdən 30 il Azərbaycanın düşdüyü bəlaları, erməni faşizminin mahiyyətini, Azərbaycan xalqının zülmlərə düçar olmasını öz səhifələrində bir dəfə işıqlandırar, hadisələrə obyektiv qiymət verərdi.***



Amma çox təəssüflər olsun ki, "Vaşinqton Post" bunu etmədi və etmək fikrində də deyil. Çünki onun məqsədi müstəqilliyini qazanan, sərbəst müstəqil siyasət yeridən dövlətləri müəyyən vasitələrlə təsir altına salmaq, onlara öz müstəqilliyini qoruyub saxlamamaq üçün manеələr yaratmaqdadır.Bu günləri ölkə rəhbəri və Azərbaycan dövləti haqqında çox mənfur, reallığa əsaslanmayan fikirlər yürüdülür. Bunun kökü həm xaricdə oturan ermənipərəst qüvvələr və onlara dəstək verən yerli müxalifət, eləcə də Azərbaycanda olan Əli Kərimli kimi insanlardır.Əgər Əli Kərimli bu gün həmin yazının dərc olunmasından narahat olub bunu Azərbaycana bir xəbərdarlıq kimi qiymətləndirirsə, yaxşı olar ki, həyata keçirilən işləri, qazandığımız tarixi qələbələri, bu gün ermənilərin yeritdiyi təxribatları, ermənilərin şaiyələrini də dilə gətirsin və Azərbaycan xalqının hansı cəbhədə necə gərgin mübarizə apardığını bildirsin. Ermənilərin tərəfini saxlayan Azərbaycan əsgərlərini təcavüzkar adlandıran, Azərbaycan xalqını işğalçı hesab edən mənfurlara qarşı da cavab versin. Bildirsin ki, bu insanlar öz torpaqlarını düşməndən azad ediblər və öz haqqhüquqları uğrunda mübarizə aparıb, 30 il cəhənnəm əzabı çəkiblər, ev-eşiklərindən didərgin düşüblər.

Yaxşı olar ki, Əli Kərimli bunları da "Vaşinqton Post"da desin.Hansısa bir balaca məqalədə Azərbaycan haqqında mənfi bir fikir yazılanda bu çox böyük ajiotaj yaradır və müxalifət də bundan ləzzət alır. Əslində buna sevinmək olmaz. Azərbaycan xalqını və vətənini sevən hər bir kəs bundan narahat olmalıdır ki, niyə mənim dövlətim haqqında belə mənfur fikirlər yürüdürlər. Niyə Qərb Azərbaycan xalqının nəaliyyətləri haqqında yazmır?! Çünki bu gün bütün dünya deyirsə, Azərbaycan Qafqazda aparıcı dövlətdir, Azərbaycan iqtisadiyyatı inkişaf edib, Azərbaycan viran olunmuş torpaqlarında yenidərqurma işləri aparır. Lakin bizim müxalifət bunun əksini görür. Bu belə olmamalıdır. Xırda məsələləri şişirdib xalqı aldatmaq olmaz. Xalq artıq Qərbin də, onların mətbuat orqanlarının da yazdıqlarına inanmır. Çünki bu yalan və əsassız faktlardır. Ona görə də düşünürəm ki, belə məqalələr bizi öz yolumuzdan döndərə bilməz. Ağlı başında olan insanlar belə böhtan xarakterli bəyanatlara heç vaxt inanmazlar".

*Ayşən Vəli*

# AXCP-dəki trol dəstəsinin sayı artırılıb

***Tam qətiyyətlə demək olar ki, dağıdıcı müxalifətin yaxın vaxtlarda düzəlməsi və normal düşüncə axarı ilə fəaliyyət göstərməsi mümkün deyil. Ən azı ona görə ki, dağıdıcı müxalifətin qazanı xarici maraqlı dairələrin ayırdığı maliyyə vəsaiti hesabına qaynayır. Hələ də "Milli Şura"nın sədri Cəmil Həsənli "Soros" Fondunun (özü müsahibəsində etiraf edib ki, "Soros"dan aylıq maaş alıb) ayırdığı pullardan özünə əyin-baş alır, qarnına çörək yeyir.***



*Ucuz rolun düşük trolları anlamırlar ki, Rasim Balayev kimi böyük sənətkarla ancaq fəxr edib, qürur duymaq olar*

Hələ də AXCP sədri Əli Kərimli müxtəlif qaranlıq dairələrin maliyyəsindən bəhrələnib, İngiltərədəki ailəsinə ev-eşik alıb, övladlarının eyş-işrət məclislərində kef etmələrinə şərait yaradıb. Eynilə Tofiq Yaqublu, Gültəkin Hacıbəyli və digərləri də özlərinə maddi cəhətdən yüksək təminatı xarici dairələrin hesabına qururlar. Təbii ki, gəliri, çıxarı xarici ağaların ayırdığı pullardan asılı olan müxalifət liderlərinin Azərbaycanın milli və dövlətçilik maraqlarından çıxış etmələri inandırıcı deyil. Yalnız o halda susa bilərlər ki, xarici qüvvələr-



lə aralarında ciddi problemlər yaransın. Hazırkı məqamda tərəflər arasında belə bir problem görünmür. Hələ ki, sıx və geniş əlaqələrə malikdirlər.

Əli Kərimlinin, Tofiq Yaqublunun, Cəmil Həsənlinin Ermənistandakı revanşistlərin, Laçın sərhəd keçid məntəqəsi yaxınlığında təxribatlar törətməyə cəhd edən ermənilərin səsinə səs vermələri xəyanətkar amplualarından irəli gəlir. Hər məqamda ölkəmizdə gedən inkişafı qara eynəkdə görmək, sosial rifahın yüksəldilməsi istiqamətində atılan addımları inkar etmək onlara verilən tapşırıqdan irəli gəlir. Bu məxluqlar bir dəfə də olsun Azərbaycanın 44 günlük Vətən Müharibəsində əldə etdiyi tarixi zəfərlə bağlı sevincli fikirlərlə xarici radiostansiyalara, TV-lərə və ya mətbu orqanlara açıqlamalar verməyiblər. Əksinə, Ə.Kərimli, T.Yaqublu, C.Həsənli parlaq hərbi, siyasi, diplomatik qələbəmizə kölgə salmağa çalışıb və erməni dayılarısayağı fikirlər səsləndiriblər.

### Dağıdıcı müxalifətin ermənilərin səsinə səs vermələri onların satqın xislətindən irəli gəlir

Sosial şəbəkələrdə yazılanlara istinadən demək olar ki, dağıdıcı müxalifətin başbilənləri az qala günün əsas hissəsini sosial şəbəkələrdə keçirirlər. Yazdıqları, paylaşdıqları ancaq şər və böhtandan ibarətdir. Onlardan bəzilərini qeyd edirəm ki, oxucular da tanış olub, müxalifətçilərin necə bir erməni dəyirmanına su tökən qərəzli insanlar olduqlarını bir daha görsünlər: Növbəti dəfə deputat seçilə bilmədiyi üçün simasını dəyişib, simasıza çevrilən "Milli Şura"nın Koordinasiya Mərkəzinin üzvü Gültəkin Hacıbəyli yazır: "Dünən bu haqda yazmışdım, bu gün xəbəri gəldi. Qubad bəylə bağlı sanksiya tələbləri səslənəcək və get-gedə artacaq. Söhbət təkcə Qubad İbadoğlu kimi bir ziyalının, alimin həbsdə məhv edilməsinin Azərbaycan üçün Maqnitski perspektivləri açmasından getmir". "Milli Şura"nın Koordinasiya Mərkəzinin üzvü Tofiq Yaqublu sərsəm ifadələrlə yenidən ucuz layk qazanmağa çalışıb. Yazır ki, ölkəmizdə o qədər hadisələr baş verir ki, cavab statusları yazmağa vaxt çatdıra bilmədiyindən, dostlarının köməyindən (yəqin ki, AXCP-dəki troll dəstəsinin rəhbəri İlham Hüseynli nəzərdə tutulur) istifadə edir. Bu, o T.Yaqubludur ki, ermənilərə xoş gəlib erməni lobbisindən aldığı maliyyə yardımlarının artırılmasına nail olmaq üçün Koçaryan, Sarkisyan, Vardanyan və digər yanlar kimi danışıb, ermənilərin maraqlarına uyğun ifadələr səsləndirir. Hələ utanıb çəkinmədən Qarabağdakı erməni separatçılarına statusun verilməsi kimi cəfəng fikir söyləyir.

Özünü "bloger" kimi sosial şəbəkələrdə təbliğ etməyə çalışan Əfqan Muxtarlı: "Türkiyə növbəti dəfə milli və qoşulduğu beynəlxalq qanunları pozaraq gənc alim Fazil Qasımovu həbs edib Azərbaycana təhvil verib. Qasımov evində həbs edilib, əvvəl deport kampına aparılıb daha sonra Azərbaycan səfirliyinə təhvil verilib". Arayış üçün qeyd edim ki, bu, o Əfqan Muxtarlıdır ki, ermənilərlə işbirliyinə gedib Azərbaycana qarşı cəsusluq etdiyi üçün həbs edilmişdir. Sonradan dövlətimiz böyük humanistlik göstərərək onun azadlığa çıxmasını həyat keçirdi. Bu gədə də böyük xeyirxahlığı dəyərləndirib, xalqımıza, hakimiyyətə minnətdarlıq etməkdənsə, AXCP sədri Əli Kərimlinin dəstəsinə qoşulub trolluq edir. Sosial şəbəkələrdə Azərbaycan dövlətinə və xalqına qarşı ittihamlar irəli sürür. Görünür, bu məxluq həbsxana üçün darıxıb. Belə hal yaranarsa, Ə.Muxtarlıya humanistlik göstərilməyəcək. Çünki qanunvericiliyə görə, bir şəxsə yalnız bir dəfə amnistiya aktından yararlanmaq şansı verilir. Ondan da Ə.Muxtarlı istifadə edib.

### "Ey bədbəxt, sənin gözlərində tor var"

AXCP RH-nin üzvü Fuad Qəhrəmanlı sosial şəbəkələrdə yaramaz statusları ilə özünü söydürənlərdəndir. Çünki bu məxluq əxlaqdan, mənəviyyatdan tez-tez statuslar paylaşır. Halbuki, bu şəxs söylədiklərini ailəsinə qarşı qəddar rəftarı ilə çoxdan itirib. Hər şeyini itirmiş bu məxluq yazır: "Bu fikirləri müxalifətçi olaraq deyil, doğrudan da, bəzi suallara cavab almaq marağı olan insan kimi yazıram. Azərbaycan hakimiyyətində olanları gerçəkdən də anlamaq olmur, nə istəyirlər, niyə belə edirlər". AXCP RH-nin üzvü İlham Hüseyn, AXCP sədrinin müavini Nurəddin Məmmədli, Azadlıq qəzetinin yazarı Səadət Cahangir, Altay Göyüşov və digərləri isə Azərbaycanın tanınmış aktyoru, "İstiqlal" ordeni ilə təltif olunan Rasim Balayevi məsxərəyə qoyurlar, onun sənətinə və şəxsiyyətinə alçaldıcı ifadələr yazırlar: "Tarix də maraqlı şeydir ki, dövrünün hakimlərinə qarşı asilikləri və cəsarətləri ilə tarixə düşmüş Nəsimi və Babəkin rolunu yaltaq və qorxaq Balayev canlandırıb. Ona görə də Nəsimi ilə Babəkin aqibəti edam, Balayevinki isə medal almaq olub. İndi tarixin də maraqlı tərəfi elə ondadır ki, ölümündən sonra Balayev kimilər haqqında kino çəkmirlər, məhz elə Nəsimilər və Babəklər haqqında çəkirlər. Ölüm isə hamımız üçün var, hamının da həyatı qısadır".

Bu ucuz rolun, düşük trolları anlamırlar ki, Rasim Balayev kimi böyük sənətkarla ancaq fəxr edib, qürur duymaq olar. Onun oynadığı rollar dünya kino fondunun qızıl səhifəsinə daxil olub. Ə.Kərimlidən göstəriş alaraq biriniz "İrasim" digəriniz "Yalıncıq" deyə aşağılamağa çalışarkən unudursunuz ki, sizlər Rasim Balayevin ayaqqabısının tozu ola bilməzsiniz. Elə "Babək" filmində Babəkin dediyi kimi, "Ey bədbəxt, sənin gözlərində tor var". Belə demək də olar, ay yazıq və bədbəxt trollar, sizlərin gözlərinizdə tor var, yaxşı olardı ki, ayılın və dünyaya günəş kimi doğan Azərbaycanda gedən işıqlı, qürurverici işlərə baxın.

**İ.ƏLİYEV**



Təhmasib Novruzov

# Birləşdirməli olanların bölüşdürmə siyasəti

Dünyamız çox kritik bir dönəmdədir. Bütün insanlığın ən böyük Vətəni olan Yer planeti "ölüm-qalım" dilemması qarşısında qalıb. Öləcək, yəni dağılacaq, yoxsa qalacaq, hələ qəti söz demək mümkün deyil. Belə getsə, qalacağına ümid yoxdu. Əcəba yaradanın məhşər günümü gəlir? Yaradan milyon illərdi yaratdığı, formalaşdırdığı, indiki sivil zamana qədər qoruyub saxladığı insanlığın, özünün ruhundan əta elədiyi, rəbbin "əşrəf" sandığı canlıların ən ali nümayəndəsinin niyə və hansı səbəbdən toplum ölümünə qərar versin? Əgər məhşər qərarı varsa, qeyd-şərtsiz, buna da səbəbkar yenə insanların özləridir. Axı rəbbim nə qədər yer üzünə rəsullarını göndərər, onların əli ilə "necə yaşamaq" sualının cavabını göndərər? Rəbbin göndərdiklərinə əməl edib dünyamızı yaşatmalı olduğumuz halda, onun göndərdiyi kitabları küçələrdə yandırırıqsa, kağız parçası kimi cırıb ayaqqabımızı siliriksə, yaradan neyləməlidi? Günəşdə kiçik bir zərrəni partlatmaqla planetimizin insan həyatına son qoymasının, belə məxluqları yaşatmaqdansa, yox etmək istəməsinin səbəbkarı da özümüz, yəni insan adlanan cütayaqlı məxluqlar deyilikmi?

Nə isə, yaradanın işinə qarışmayaq, qarışa da bilmərik. Nəyi, nə zaman və necə eləməyin ən doğrusunu o bilir. Amma bildiyimiz bircə şey var ki, rəbbim bizə elçilər və kitablar göndərməkdən yoruldu, amma biz rəbbin arzuladığı məxluq ola bilmirik ki, bilmirik. Planetimizdə bir əsrdə iki dünya müharibəsi baş verdi. Milyonlarla insan qurban getdi. Min illər boyu tikilənlər, qurulanlar, yaradılanlar darmadağın edildi. Səbəb? Dünyanı yenidən bölüşdürmək! Yəni daha çox ərazi götürmək, daha çox mülkə sahib olmaq, daha çox var-dövlət toplamaq. Əcəba rəbbimiz hər bir insanın əbədi sahib olacağı məkanın cəmi 2-3 kvadrat metr ərazidən, əbədi sahib olacağı var-dövlətin isə 2-3 metr ağ parçadan ibarət olduğunu "dəfn qaydaları" ilə bizlərə mesaj verməmişdimi? Bəs, böyük Nizami demiş, yeyilməsi, içilməsi mümkün olmayan dünyanın xəzinələri naminə insanlığı məhvə sürükləyən başda oturan başsızlar bunu niyə unudurlar? Çox oturub, müasir dəbdə olan kepkamı qoydum qabağıma və düşünüb, daşınıb o qərara gəldim ki, dünyamızı bu gün məhvə sürükləyən iblis xislətli məxluqlar, guya dünyanı birləşdirmək istəyən bəzi-bəzi dünya təşkilatlarını idarə edənlərdir.

Məsələn, BMT! Adı "Birləşmiş" millətlərin təşkilatı, yəni dünyadakı millətləri birləşdirən təşkilat kimi səslənsə də, bütün fəaliyyəti millətləri bölməyə, parçalamağa, allahın buyurduğu yolla idarə olunan dövlətlərin içində problemlər yaratmağa, ya da işartısı olan problemləri körükləməyə yönəlmişdir. Elə yaşadığımız zamanda (Həm də təkcə yaşadığımız zamanda yox- T.N.) dünyanın ən qaynar nöqtələrindən biri olan Qafqazda baş verənlərə bu təşkilatın yanaşması, onun xislətini ortaya qoyur. Otuz iki ildi bir milyon insanı yerindən, yudundan didərgin salan, on minlərlə kvadrat kilometr ərazini xarabaya çevirən, təbiətin bəxş etdiyi floranı, faunanı darmadağın edən, "Xocalı qətliamı"nı törədən, Azərbaycanın bir parçası olan Naxçıvanı blokadada saxlayan bir tayfaya gözünün üstündə qaşının olduğunu xatırlatmayan bu təşkilat, indi beş-altı tırın qanunsuz yolla ölkəyə daxil olmasına yox deyən ölkəni tutub mesaj atəşinə. Belə ikili, üçlü yox, çoxüzlü mövqeyi olan bir quruma necə millətləri birləşdirən təşkilat demək olar? Bir təklifim də var, bundan sonra bu qurumu Birləşmiş Millətlər Təşkilatı yox Bölünmüş Miillətlər Təşkilatı adlandıraq. Bizə fərq eləməz, onsuz da yenə baş hərflər birləşəcək və yenə BMT olacaq. Mahiyyət isə gerçəkləşəcək. Bu təşkilat birləşdirməkdən çox bölməyə meyllidirsə, niyə belə də olmasın? Axı birləşdirmək üçün ədalətli, obyektiv və birüzlü mövqe gərəkdir! O isə indiki BMT-də yoxdu və adın dəyişməsi zəruridir. Təkcə BMT yox, elə o biri təşkilatların da adlarına yenidən baxmağa dəyər. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatını (ATƏT-i) Avroasiyada Təhlükələrin Əməli Təşkili (ATƏT), Avropa İttifaqını (Aİ-ni) Avropa İribaşları (Aİ), Avropa Şurası Palament Assambleyasını (AŞPA-nı) Avropa Şəbəkəsi Parçalama Assambleyası (AŞPA) adlandırsaq daha məntiqli və daha doğru olmazmı?

Sizi bilmirəm, əziz oxucular, vallah mənim gəldiyim qənaət budur ki, yaradanın qəzəbini tutduran və dünyamıza məhşəri yaxınlaşdıran, guya dünyada haqq-ədalətə, insanlığa xidmət etməsi adı ilə yaranan bu və bunlar kimi ikiüzlü, beşüzlü qurumlardı. Yəni bunlar rəbbimizin səbr kasasın doldurublar artıq. Bəlkə bunları tanımayaq? Mümkünmü? Allahın yolundan çıxan, allahı tanımayan belə təşkilatları da biz tanımasaq, dolayısı ilə allahımıza sadiqlik nümayiş etdirmiş olarıq. Bəlkə onda allah planetimizdəki günahları bizlərə xatir yenə bağışladı!..

***Şübhəsiz ki, köhnə tikililərin həyatındə, çoxlu qonşuların əhatəsində yaşayan bir çox insanlar son dərəcə aktiv, səs-küylü, manipulyasiya edən, pulun olmamasından, xəstəlikdən və digər bədbəxtliklərdən həmişə şikayət edən qonşuya rast gəlir. Deməli, indi Ermənistan başqalarının hesabına günəş altında yer almağa çalışan belə hiyləgər və hay-həşirçi bir xanıma bənzəyir. İrəvan bütün öhdəliklərini- Zəngəzur dəhlizinin açılmasını, sərhədin demarkasiyasını, Ermənistan silahlı qüvvələrinin Qarabağdan çıxarılmasını, ən əsası isə sülh müqaviləsini imzalamalı olduğunu unudaraq, çalışır ki, ucadan qışqıraraq, beynəlxalq diqqəti başqa səpkili uydurma problemlərə yönəltsin.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Beynəlxalq ekspertlər: "Azərbaycan hər hansı bir yolla Zəngəzur dəhlizini açıb keçəcək"



Və burada tamamilə cəfəngiyyatdan istifadə olunur - Qarabağdakı "aclıq" və "erməni əhalisinin soyqırımı"ndan tutmuş Azərbaycan tərəfindən saxlanılan erməni hərbi cinayətkarların acı taleyinə qədər.

İrəvanın oyunlarının bu yeni mərhələsinə nə səbəb oldu? O, hara gedir və nəyə ümid edir? Xarici ekspertlər "Caliber" analitik mərkəzinə şərhlərində bu məqamları aydınlaşdırıblar.

**"Vestnik Kavkaza" informasiya agentliyinin baş direktorunun müavini, politoloq Andrey Petrovun** sözlərinə görə, beynəlxalq ictimaiyyət bu gün Ermənistanın ənənəvi xarici siyasətinin şahididir: sülhə münasibətinizdən danışmaq, amma heç nə etməmək və öz mövqeyi və hərəkətsizliyi üçün maksimum səbəb, bəhanə axtarmaq.

Politoloqun qeyd etdiyi kimi, bu oyun iki ssenari üzrə aparılır: əgər heç nə baş verməsə, Ermənistan fəal şəkildə sülh əhval-ruhiyyəsi ilə bağlı bəyanatlar dərc edir, çünki bu halda ondan heç nə tələb olunmur.

"Azərbaycan meydanda aktiv addımlar atanda Ermənistan Bakını tənqid etməyə keçir, çünki onun məqsədi, sonda- bunu birbaşa deməyin vaxtıdır,- artıq əldə edilmiş irəliləyişləri dondurmaq, onun indulgensiyalarını dəyişməz qoymaqdır. Əslində, Ermənistan siyasətində Koçaryan və Sarkisyanın, eləcə də İkinci Qarabağ müharibəsindən əvvəl Paşinyanın dövründə olanlarla müqayisədə yeni heç nə yaranmayıb. İrəvanda əvvəlki kimi onlar müəyyən sərhəddə "nə müharibə, nə sülh" vəziyyətində saxlamaq istəyirlər ki, Ermənistanın "natamam" məğlubiyyəti vəziyyəti mümkün qədər uzun müddət və daha yaxşı olar ki, əbədi olaraq qalsın",- A.Petrov hesab edir.

Ona görə də o hesab edir ki, indi, Azərbaycan erməni hərbi cinayətkarlarını müəyyən edib saxlamağa başlayanda, Azərbaycan Bərdədən Ağdama, oradan da Xankəndinə qədər məntiqi əsaslandırılmış yol çəkərkən, Ermənistan buna nəyisə dayandırmaq, nəyisə dəyişmək tələbləri ilə cavab verir, çünki hazırda mövcud olan aralıq status-kvodakı faydalarını itirməkdən qorxur.

"Bundan sonra nə olacaq? 44 günlük müharibədən sonra təxminən 3 ilə yaxın dövrün təhlilinə əsaslanaraq, demək olar ki, aydın şəkildə deyə bilərik: Ermənistan boş bəyanatlar verməkdə davam edəcək və heç nə etməyəcək. Təxribatlar istisna olmaqla, baxmayaraq ki, onların artıq təxribat törətməyə daha az imkanları var. Azərbaycan isə Qarabağı və Şərqi Zəngəzuru dirçəltmək, təhlükəsizliyini təmin etmək üçün öz sülh proqramını ardıcıl şəkildə həyata keçirəcək. Yəni, bundan sonra görəcəyimiz hər şey sırf Azərbaycanın öz proqramını həyata keçirdiyi rejimdə olacaq və Ermənistan bununla bağlı heç nə edə bilməz, ancaq şifahi, sosial şəbəkələrdə və rəsmi bəyanatlarda hiddətlənə bilər",- rusiyalı politoloq deyir.




Onun fikrincə, gec-tez bütün bunlar ona gəlib çatacaq ki, Azərbaycan Zəngəzur dəhlizinin öz hissəsini tamamlayacaq, Ermənistan isə öz növbəsində bir dənə də olsun dəmir yolu çəkməyəcək.

"Amma mən ümid etmək istərdim ki, Azərbaycan istər təkbaşına, istərsə də Zəngəzur dəhlizində maraqlı olan Türkiyə və Rusiyanın köməyi ilə Zəngəzurun ermənilərə məxsus hissəsini birtəhər yarıb keçəcək və bu yol tamamlanacaq.

Əgər erməni separatçılarının silahlı birləşmələrinin Qarabağdan çıxarılmasından danışsaq, o zaman, görünür, bu, onların tərksilahı kimi görünsə də, eyni zamanda, hərbi cinayətlərdə təqsirli olan insanlar saxlanılıb həbs olunacaqlar. Qalan hər kəsə, İlham Əliyevin dediyi kimi, seçim hüququ veriləcək: ya Azərbaycan vətəndaşı kimi qal, ya da Ermənistana get. Amma burada bir daha təkrar edirəm ki, Qarabağı elə hamı tərk edə bilməyəcək- hərbi cinayətlərdə iştirak edənlər artıq Azərbaycanı tərk edə bilməyəcəklər. Necə ki, məsələn, Vaqif Xaçaturyanla belə oldu", - deyə A.Petrov bildirib.

**Ukraynalı politoloq, Kiyev Yaxın Şərq Araşdırmaları Mərkəzinin direktoru İqor Semivolos** da onunla razılaşır. Onun sözlərinə görə, Ermənistanın strategiyası 2020-ci ildən bəri çox dəyişməyib. Paşinyanın əsas vəzifəsi müharibə və sülh həddində balanslaşdırılaraq danışıqları mümkün qədər uzatmaq və eyni zamanda, Qərb üçün "aclıq", "blokada" "soyqırım" və s. kimi həssas mövzulara müraciət etməkdir.




"Ermənilərin qarşısında hələ də mühüm vəzifə durur- bu və ya digər formada separatçıların qanunsuz birləşməsini qorumaq və bu birləşmənin idarə olunmasının xarici qüvvələr tərəfindən həyata keçirilməsini təmin etmək. Əslində, Paşinyanın qərarlarının bu səviyyəsi ona erməni cəmiyyəti daxilində kompromislər tapmağa imkan verir.

İrəvan nəyə güvənir? Bu, onlara yeni seçimlər tapmağa imkan verəcək. Məsələn, yeni müttəfiqlər tapmağa kömək edəcək. Avropada bu problemə diqqət çəkmək üçün lazımi qədər qüvvələr var. Xüsusən də, ABŞ-da növbəti seçkilər ərəfəsində, hansısa məqamda erməni diasporu oynaya və Amerika siyasətçilərinin qərarlarına təsir edə bilər. Bundan əlavə, indi, Rusiyanın Cənubi Qafqazda mövqeyi ciddi şəkildə zəiflədiyi və Rusiya Ermənistana 2025-ci ildən sonra status-kvonun saxlanmasına zəmanət verə bilmədiyi bir vaxtda İrəvanın hədəflərinə bu və ya digər strategiya daxildir- Qarabağın Azərbaycanın tərkibində qəti şəkildə təsbit edilməsinin qarşısını almaq, onun tam şəkildə sözün hər mənasında Bakının nəzarəti altında keçidinə mane olmaq.

O ki qaldı yeni müharibə haqqında söhbətlərə, mənə elə gəlir ki, erməni tərəfinin istənilən halda belə müharibə üçün kifayət qədər resursu olmayacaq. Eyni zamanda, görünür, Ermənistan tərəfi Azərbaycanın indi Rusiya qoşunlarının Qarabağda olması şəraitində orada aktiv döyüşlərə başlamayacağına ümid bəsləyir. Rusiya isə öz tərəfindən 2025-ci ildən sonra qoşunlarının orada qalmasında maraqlıdır. Bu, o deməkdir ki, elə bir vəziyyət yaranır ki, Moskvanın iştirakı olmadan nə Ermənistan, nə də Azərbaycan münasibətlərini tənzimləyə bilməyəcək. Və bu baxımdan Bakı üçün yalnız diplomatik səylər qalır ki, bu da Rusiyanı öhdəliklərin bir hissəsini yerinə yetirməyə- qoşunlarını Qarabağdan çıxarmağa məcbur edəcək. Və burada, mənə elə gəlir ki, çox şey Ukrayna cəbhəsində baş verənlərdən asılıdır: Rusiya zəifləsə, artıq başqa yerlərdəki gərginlik nöqtələrində iş aparmaq üçün lazımi resursları olmayacaq.

Sülh sazişinin bağlanması imkanlarına və perspektivlərinə gəlincə, mənə elə gəlir ki, erməni tərəfi bu vəziyyətə çatmalıdır. Ermənistanda saxtakarlıq, panik əhval-ruhiyyənin yayılması və bunun qəsdən qarşıdurma dərəcəsini yüksəltməsi də eynilə diqqəti özünə və problemlərinə yönəltmək, həm də əhalini Azərbaycanla qorxutmaq strategiyasıdır. İrəvanda və digər mərkəzlərdə məskunlaşan bu şouların təşkilatçılarının sadəcə olaraq başqa manipulyasiya vasitələri yoxdur",- deyə İ.Semivolos yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***



SƏS
10 avqust
2023-cü il

# Yayda pəhriz saxlamaq olar, yoxsa olmaz?

*“Yay mövsümünün gəlməsi ilə əlaqədar bir çoxları ideal bədən çəkisi əldə etmək və yaxşı görünmək üçün pəhrizlərə başlayıb. Ancaq çəki atacam deyə pəhrizə başlayarkən səhvə yol verməmək lazımdır”. Bu sözləri SİA-ya açıqlamasında təhlükəsiz qida tədqiqatçısı Asim Vəliyev deyib.*



MÜTƏXƏSSİS AÇIQLADI

Onun sözlərinə görə, hər orqanizmə fərdi yanaşmaq və qulaqda eşitmə, sosial şəbəkələrdə rastgələn hər pəhriz hər kəs tərəfindən istifadə olunmamalıdır: “Pəhriz boyunca fərqində olmadan səhv pəhriz proqramı ilə həm zəifləmə müddətini yavaşlada və bir sıra sağlamlıq problemləri ilə qarşılaşa bilərik. Həmçinin pəhrizi dayandırdıqda əvvəlkindən daha çox çəki ala bilərik.



Xüsusilə aşağı kalorili pəhrizlər sağlamlığımıza mənfi təsir edir. Tərəziyə çıxdıqda çəkimizdə müəyyən azalmalar hiss olunsa da bu keçici bir çəki azalmasıdır”.

Asim Vəliyev sözlərinə belə davam edib: “Balanslaşdırılmayan qidalanma nəticəsində əzələ azalması, baş ağrısı, saç tökülməsi, qəbzlik, qan şəkəri balansının pozulması, dəri quruluğu və s. bir sıra sağlamlıq problemləri ilə qarşılaşa bilərik. Əksinə balanslı qidlaanaraq qalıcı çəki əldə etməliyik. Hər bir orqanizmin sağlam bir şəkildə öz funksiyasını yerinə bilməsi üçün gündəlik müəyyən bir kaloriyə ehtiyac var. Bu kalorini gün ərzində yeyib-içdiyimiz qidalardan əldə edirik.



Pəhriz müddətində kalori miqdarı azaltmaq üçün yeməkləri yağsız bişirmək, omeqa 9 yağ turşuları və vitaminlə zəngin sağlam yağları qəbul etməməyə səbəb olduğu üçün yağda əriyən vitaminlərin sorulmasına da mənfi təsir edir. Sağlamlığa mənfi təsir edən bu hal pəhriz müddətində bir müddət sonra çəki azalmasını dayandırır, ya da yavaşladır.

Pəhriz edərkən yağ ehtiyacınızı uyğun miqdarda zeytun yağı, avakado, qoz, badam və fındıq kimi yağlı toxumlar yeyərək sağlam yağ turşularını qəbul edə bilərsiniz. Yay fəslində pəhrizdə ən yaxşı seçim mineral su əvəzinə sudur. Həmçinin qazlı və şəkərli sulardan da uzaq durmalıyıq. Bir çoxlarımız pəhrizdəyəm deyə tamamilə karbohidrat ehtiva edən qidalarla vidalaşır.

Orqanizmin əsas enerji qaynağı olan karbohidratlar lif, B qrup vitaminlər və minerallar baxımından zəngin olduğu üçün, tamamilə pəhrizdən çıxarıldıqda bağırsaq funksiyasının pozulmasına, şirin yemək ehtiyacının artmasına səbəb olur”.

**A. Vəli**



“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Evdən külli miqdarda pul və qızıl oğurlandı



Bakıda evdən 8500 manat, 11000 dollar və 13000 manatlıq qızıl oğurlanıb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, avqustun 4-də Nərimanov rayonu ərazisindəki evlərin birindən 8500 manat, 11000 dollar pul və 13000 manat dəyərində qızıl-zinət əşyalarının oğurlanması barədə polisə məlumat daxil olub.

Bakı Şəhər Baş Polis İdarəsi və Nərimanov Rayon Polis İdarəsinin 17-ci Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində oğurluq əməlini törətməkdə şübhəli bilinən Ağstafa rayon sakini Abbas Ələkbərov müəyyən olunaraq saxlanılıb. Faktla bağlı araşdırma aparılır.

# Şəxs əsgər gedəndə maaşının aqibəti necə olur?

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 77-ci maddəsinə əsasən, qanunvericiliklə müəyyən edilmiş qaydada müəssisənin ləğvi istisna olmaqla, işçinin müddətli həqiqi hərbi xidmətdə olduğu müddət ərzində mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq müəssisədə iş yeri və vəzifəsi saxlanılır”. Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib.



VƏKİL AÇIQLADI

Onun sözlərinə görə, müddətli həqiqi hərbi xidmətə çağırılanadək müvafiq müəssisədə işləmiş şəxslər, hərbi xidmətdən buraxıldıqdan ən geci 60 təqvim günü keçənədək həmin müəssisədə əvvəlki və ya buna bərabər vəzifəyə (peşəyə) qayıtmaq hüququna malikdirlər: ”Lakin əmək haqqı məsələsinə gəldikdə isə, bildirmək istərdim ki, ƏM-nə əsasən əmək haqqı dedikdə- müvafiq iş vaxtı ərzində əmək funksiyasını yerinə yetirmək üçün əmək müqaviləsi ilə müəyyən edilmiş, işçinin gördüyü işə (göstərdiyi xidmətlərə) görə işəgötürən tərəfindən pul və ya natura formasında ödənilən gündəlik və ya aylıq məbləğ, habelə ona edilən əlavələrin, mükafatların və digər ödənclərin məcmusudur.

Yəni hərbi xidmətdə olduğu vaxt ərzində işçi işəgötürən üçün hər hansı əmək funksiyasını yerinə yetirmədiyi üçün ona hər hansı formada əmək haqqı hesablanmır.

Bundan əlavə qeyd etmək istərdim ki, hər bir Azərbaycan vətəndaşı müddətli həqiqi hərbi xidmətdə olduğu müddət ərzində hər ay “əsgər maaşı” alır”.

**Ayşən**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**